**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# SOSİAL, İQTİSADİ İNKİŞAF

# 7

**YANVAR-İYUL**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2024-cü ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 12 |
| | Sənaye | 15 |
| | Tikinti | 38 |
| | Kənd təsərrüfatı | 43 |
| | Nəqliyyat | 52 |
| | İnformasiya və rabitə | 57 |
| | İstehlak bazarı | 58 |
| | Əmtəə bazarı | 59 |
| | İctimai iaşə xidmətləri | 68 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 70 |
| | Qiymət indeksləri | 74 |
| | Kredit qoyuluşları | 90 |
| | Qiymətli kağızlar bazarı | 92 |
| | Məşğulluq və işsizlik | 93 |
| | Yeni iş yerləri | 96 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 100 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 105 |
| **V** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 116 |
| | Əməkhaqqı | 117 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 118 |
| | Sosial müdafiə | 120 |
| | Hüquqpozmalar | 127 |
| | Demoqrafik vəziyyət | 133 |
| | İqtisadi rayonlar | 141 |
| | **Metodoloji izahatlar** | **201** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 7**
**14 avqust 2024-cü il**

# 2024-cü İLİN YANVAR-İYUL AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2024-cü ilin yanvar-iyul aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 70,5 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artmışdır.

Əlavə dəyərin 38,4 faizi sənaye, 9,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,7 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 19,1 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 6921,4 manata bərabər olmuşdur

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar-iyul aylarında 37,3 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri neft-qaz sektorunda isə 8,0 faiz artmışdır.

Sənaye məhsulunun 65,0 faizi mədənçıxarma sektorunda, 29,3 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 6,4 faiz artmışdır.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 73,6 faiz, əczaçılıq məhsullarının istehsalı 69,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 49,9 faiz, elektrik avadanlıqlarının istehsalı 33,9 faiz, mebel istehsalı 33,3 faiz, tikinti materiallarının istehsalı 30,2 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 29,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 25,3 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 24,5 faiz, hazır metal məmulatlarının istehsalı 19,5 faiz, içkilərin istehsalı 15,8 faiz, tütün məmulatlarının istehsalı 11,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 8,2 faiz, qida məhsullarının istehsalı 6,2 faiz, kağız və karton istehsalı 5,2 faiz, geyim istehsalı 3,8 faiz, neft məhsullarının istehsalı 1,3 faiz artmış, ağacın emalı və ağacdan məmulatların istehsalı 2,1 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 9,8 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 11,3 faiz, poliqrafiya məhsullarının istehsalı 20,0 faiz, maşın və avadanlıqların istehsalı 28,7 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 45,2 faiz, sair sənaye məhsullarının istehsalı isə 50,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,3 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 9,7 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 avqust 2024-cü il vəziyyətinə 873,9 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatı** məhsullarının yığımı davam edir. Avqust ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2935,5 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 1,2 faiz çox dənli və dənli paxlalı bitkilər, 1245,7 min ton (0,2 faiz çox) tərəvəz, 598,6 min ton (10,0 faiz az) kartof, 429,0 min ton (10,3 faiz çox) bostan məhsulları, 331,1 min ton (5,1 faiz çox) meyvə

və giləmeyvə, 22,0 min ton (2,4 dəfə çox) şəkər çuğunduru, 5,8 min ton (28,2 faiz az) üzüm, 1,8 min ton (35,9 faiz az) günəbaxan, 1,8 min ton (2,2 faiz çox) tütün, 773,4 ton (7,8 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

2024-cü ilin yanvar-iyul aylarında diri çəkidə 331,2 min ton ət, 1312,0 min ton süd, 1385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunmuşdur. 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artmış, yun istehsalı 1,6 faiz, barama istehsalı 32,9 faiz azalmışdır.

2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,8 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,5 faiz, bitkiçilik məhsulları istehsalı 0,2 faiz artmışdır.

2024-cü ilin yanvar-iyul aylarında **əsas kapitala** 9438,7 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 0,4 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 2,9 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 4914,8 milyon manatı və ya 52,1 faizi məhsul istehsalı sahələrinə,3404,4 milyon manatı (36,1 faizi) xidmət sahələrinə, 1119,5 milyon manatı (11,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 7728,6 milyon manatını və ya 81,9 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 6632,7 milyon manatı və ya 70,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-iyul aylarında 133,5 milyon ton **yük** və 1131,5 milyon **sərnişin** daşınmışdır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,1 faiz, sərnişin daşınması isə 8,7 faiz artmışdır. Yüklərin 58,1 faizi avtomobil, 29,9 faizi boru kəməri, 8,1 faizi dəmir yolu, 3,7 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin

87,9 faizi avtomobil, 11,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 1939,3 milyon manatlıq xidmətlərin 74,0 faizi əhali sektoruna aid olmuşdur. 2024-cü ilin yanvar-iyul aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,6 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 84,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2024-cü ilin yanvar-iyul aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 32263,8 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 6882,7 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 7,4 faiz artmış, ticarət şəbəkəsində 17801,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 14462,0 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-iyun aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 22169,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 13302,0 milyon dollarını və ya 60,0 faizini ölkədən ixrac olunmuş məhsulların, 8867,2 milyon dollarını (40,0 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 4434,8 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 6,3 faiz, real ifadədə 6,0 faiz, o cümlədən idxal 6,7 faiz, ixrac isə 5,7 faiz azalmışdır.

2024-cü ilin yanvar-iyun aylarında qeyri neft-qaz məhsullarının ixracı 2023-cü ilin yanvar-iyun aylarına nisbətən faktiki qiymətlərlə 10,0 faiz, real ifadədə 19,1 faiz azalaraq 1596,1 milyon dollar təşkil etmişdir.

2024-cü ilin yanvar-iyul aylarında **istehlak qiymətləri indeksi** 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 101,0 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,7

faiz, qeyri-qida malları üzrə 101,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,7 faiz təşkil etmişdir.

2024-cü ilin yanvar-iyun aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,8 faiz artaraq 1002,8 manat olmuşdur.

2024-cü ilin yanvar-iyul aylarında **əhalinin gəlirləri** nominal ifadədə 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz artaraq 47,1 milyard manat olmuşdur.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2024-cü ilin yanvar-iyul aylarında **dövlət büdcəsinə** 22584,9 milyon manat vəsait daxil olmuş, büdcədən 19458,4 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 3126,5 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2024-cü il iyul ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekviva-lentində 27003,3 milyon manat təşkil etmiş, onun 22683,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,7 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2024-cü il iyul ayının 1-nə 14180,7 milyon manat olmuşdur.

2024-cü ilin yanvar-iyul aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 1,84 manata, 100 Türk lirəsinə – 5,34 manata, 100 Rusiya rubluna – 1,88 manata bərabər olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında **əhalinin sayı** 19243 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il iyul ayının 1-i vəziyyətinə 10200013 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2024-cü ilin yanvar-iyul ayları, faktiki | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün 2023-cü ilin yanvar-iyul ayları 2022-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **70 544,0** | **104,5** | **100,7** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 45 935,0 | 106,7 | 103,4 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **6 921,4** | **104,0** | **100,1** |
| **Sənaye məhsulu, milyon manat** | **37 263,1** | **101,7** | **98,4** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 10 418,7 | 108,0 | 106,5 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **9 438,7** | **102,0** | **120,8** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 6 141,2 | 102,9 | 124,3 |
| ondan qeyri neft-qaz sənayesinə | 440,3 | 95,6 | 68,4 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **7 508,2** | **100,8** | **103,3** |
| o cümlədən: bitkiçilik | 3 836,8 | 100,2 | 103,2 |
| heyvandarlıq | 3 671,4 | 101,5 | 103,4 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **133,5** | **104,1** | **106,5** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 131,5** | **108,7** | **116,3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 939,3** | **112,6** | **113,7** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **32 263,8** | **103,4** | **103,1** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **6 882,7** | **107,4** | **115,2** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **22 584,9** | **120,3** | **104,8** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **19 458,4** | **110,4** | **114,9** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **3 126,5** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **47 138,9** | **105,8** | **114,8** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **4 625,0** | **105,3** | **114,1** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2024-cü il 01 iyul vəziyyətinə, milyon manat** | **14 180,7** | **111,2** | **120,3** |
| **Kredit qoyuluşları, 2024-cü il 01 iyul vəziyyətinə, milyon manat** | **27 003,3** | **122,9** | **116,7** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 451,7 | 89,9 | 76,0 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **1 002,8*** | **108,8**** | **111,5***** |
| **İstehlak qiymətlərinin indeksi[1)]** | **x** | **101,0** | **112,2** |
| **Əhalinin sayı, 2024-cü il 01 iyul vəziyyətinə, min nəfər** | **10 200,0** | **100,5** | **100,6** |
| **Xarici ticarət dövriyyəsi[2)], milyon ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **22 169,2*** | **93,7**** | **91,4***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **94,0**** | **106,2***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 13 302,0* | 86,0** | 79,2*** |
| müqayisəli qiymətlərlə | x | 94,3** | 105,5*** |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 1 596,1* | 90,0** | 120,6*** |
| müqayisəli qiymətlərlə | x | 80,9** | 116,9*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 8 867,2* | 108,2** | 129,0*** |
| müqayisəli qiymətlərlə | x | 93,3** | 108,5*** |

**Qeyd:**

* 2024-cü ilin yanvar-iyun ayları.

** 2024-cü ilin yanvar-iyun ayları 2023-cü ilin yanvar-iyun aylarına nisbətən.

*** 2023-cü ilin yanvar-iyun ayları 2022-ci ilin yanvar-iyun aylarına nisbətən.

1) 2024-cü ilin iyul ayı üzrə **illik** (2024-cü ilin iyul ayı 2023-cü ilin iyul ayına nisbətən) istehlak qiymətləri indeksi 102,7 faiz təşkil etmişdir.

2) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## Ümumi Daxili Məhsul istehsalı

2024-cü ilin yanvar-iyul aylarında ölkədə 70544,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artmışdır.

ÜDM istehsalının 38,4 faizi sənaye, 9,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,7 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 6921,4 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyul | | 2024-cü ilin yanvar-iyul ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2024 | 2023*) | |
| **Ümumi Daxili Məhsul** | **70544,0** | **70303,8** | **104,5** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 4215,8 | 4094,5 | 100,7 |
| Sənaye | 27071,9 | 30193,4 | 101,7 |
| o cümlədən: mədənçıxarma sənayesi | 21834,0 | 25310,6 | 100,8 |
| emal sənayesi | 4317,7 | 3995,9 | 107,2 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 757,5 | 734,9 | 99,7 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 162,7 | 152,0 | 109,7 |
| Tikinti | 4034,3 | 3459,3 | 114,9 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 6764,0 | 6523,3 | 103,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4927,8 | 4317,6 | 116,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1728,3 | 1554,6 | 110,1 |
| İnformasiya və rabitə | 1238,6 | 1095,5 | 112,6 |
| Digər sahələr | 13504,4 | 12521,3 | 103,2 |
| **Məhsula və idxala xalis vergilər** | **7058,9** | **6544,3** | **107,8** |

*) 2023-cü ilin yanvar-iyul aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyul | | 2024-cü ilin yanvar-iyul ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2024 | 2023*) | |
| **Ümumi Daxili Məhsul** | **70544,0** | **70303,8** | **104,5** |
| o cümlədən:<br>neft-qaz sektoru | 24609,0 | 27775,7 | 101,2 |
| qeyri neft-qaz sektoru | 45935,0 | 42528,1 | 106,7 |

*) 2023-cü ilin yanvar-iyul aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



## Sənaye

2024-cü ilin yanvar-iyul aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 37,3 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri neft-qaz sektorunda isə 8,0 faiz artmışdır.

Sənaye məhsulunun 65,0 faizi mədənçıxarma, 29,3 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 81,6 faiz olmuşdur. Ümumi istehsalın 89,8 faizi sənaye məhsullarının istehsalı, 10,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2023-cü il** | | |
| Yanvar | 100,6 | 95,7 |
| Fevral | 90,0 | 97,2 |
| Mart | 93,0 | 96,8 |
| Aprel | 93,5 | 97,6 |
| May | 113,0 | 98,1 |
| İyun | 93,0 | 98,4 |
| İyul | 104,6 | 98,4 |
| Avqust | 103,0 | 99,3 |
| Sentyabr | 86,0 | 98,9 |
| Oktyabr | 99,9 | 98,4 |
| Noyabr | 116,3 | 99,0 |
| Dekabr | 110,0 | 98,9 |
| **2024-cü il** | | |
| Yanvar | 101,1 | 98,5 |
| Fevral | 93,1 | 100,1 |
| Mart | 93,8 | 100,9 |
| Aprel | 90,5 | 100,6 |
| May | 113,2 | 100,4 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| İyun | 96,6 | 100,9 |
| İyul | 107,7 | 101,7 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 avqust 2024-cü il vəziyyətinə 873,9 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 51,1 faizi Bakı, 16,8 faizi Sumqayıt, 2,8 faizi Gəncə, 2,2 faizi Şirvan şəhərlərinin, 1,6 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 99,1 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 24,2 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,1 faiz artmışdır.

Cədvəl 5

### Mədənçıxarma sənayesi üzrə istehsalın həcmi

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Mədənçıxarma sənayesi** | 24225,6 | 101,1 |
| Xam neft və təbii qaz hasilatı | 22422,8 | 100,9 |
| Metal filizlərinin hasilatı | 148,1 | 84,6 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 141,1 | 130,4 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 1513,6 | 108,1 |

Sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 16,9 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 22,5 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 6,4 faiz artmışdır.

Cədvəl 6

**Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 16950,1 | 95,6 | 210,8 |
| ondan əmtəəlik | 16913,8 | 95,7 | 210,8 |
| Təbii qaz, milyon kub metr | 29457,2 | 104,3 | - |
| ondan əmtəəlik | 22510,9 | 106,4 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis konsentratı, ton | 112,0 | 5,4 | 25,9 |
| Gümüş, kq | 1906,8 | 79,9 | 560,2 |
| Qızıl, kq | 1248,2 | 105,6 | 319,4 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| İnşaat üçün əhəng daşı, min ton | 417,5 | 2,5 d. | - |
| Gips və anhidrit, min ton | 310,3 | 110,8 | 57,4 |
| Tikinti qumu, min ton | 736,5 | 146,0 | 8,0 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, min ton | 2243,1 | 179,7 | 110,7 |
| Bentonit, min ton | 109,2 | 136,5 | 110,9 |
| Duz, ton | 50863,0 | 122,0 | 99,4 |

Qrafik 2

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**




## Emal sənayesi

Emal sənayesində 2024-cü ilin yanvar-iyul aylarında 10901,1 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

**Emal sənayesində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| | **2023-cü il** | |
| Yanvar | 95,9 | 98,6 |
| Yanvar-fevral | 102,0 | 106,6 |
| Yanvar-mart | 103,0 | 104,4 |
| Yanvar-aprel | 110,4 | 106,2 |
| Yanvar-may | 114,4 | 108,3 |
| Yanvar-iyun | 113,1 | 107,7 |
| Yanvar-iyul | 111,2 | 108,7 |
| Yanvar-avqust | 109,9 | 108,2 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| Yanvar-sentyabr | 109,4 | 108,3 |
| Yanvar-oktyabr | 109,6 | 109,7 |
| Yanvar-noyabr | 109,8 | 110,6 |
| Yanvar-dekabr | 109,8 | 111,2 |
| **2024-cü il** | | |
| Yanvar | 107,3 | 117,7 |
| Yanvar-fevral | 113,7 | 118,1 |
| Yanvar-mart | 110,0 | 112,9 |
| Yanvar-aprel | 110,7 | 114,0 |
| Yanvar-may | 109,5 | 111,0 |
| Yanvar-iyun | 107,4 | 110,9 |
| Yanvar-iyul | 107,2 | 110,8 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 8

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **10901,1** | **107,2** |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 2813,5 | 106,2 |
| içki istehsalı | 475,9 | 115,8 |
| tütün məmulatlarının istehsalı | 399,2 | 111,2 |
| toxuculuq sənayesi | 173,2 | 90,2 |
| geyim istehsalı | 61,0 | 103,8 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 13,6 | 124,5 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 13,0 | 97,9 |
| kağız və karton istehsalı | 124,4 | 105,2 |
| poliqrafiya məhsullarının istehsalı | 73,0 | 80,0 |
| neft məhsullarının istehsalı | 2908,0 | 101,3 |
| kimya sənayesi | 912,6 | 108,2 |
| əczaçılıq məhsullarının istehsalı | 14,1 | 169,1 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 299,9 | 125,3 |
| tikinti materiallarının istehsalı | 779,7 | 130,2 |
| metallurgiya sənayesi | 554,8 | 129,2 |
| hazır metal məmulatlarının istehsalı | 217,0 | 119,5 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 21,2 | 173,6 |
| elektrik avadanlıqlarının istehsalı | 118,5 | 133,9 |
| maşın və avadanlıqların istehsalı | 289,3 | 71,3 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 123,7 | 149,9 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 8,6 | 54,8 |
| mebellərin istehsalı | 182,7 | 133,3 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 45,9 | 49,9 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 278,3 | 88,7 |

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 15,8 faiz, tütün məmulatlarının istehsalında 11,2 faiz, qida məhsullarının istehsalında isə 6,2 faiz artım müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından viski, brendi istehsalı 2,7 dəfə, tütün istehsalı 2,6 dəfə, duru bitki yağlarının istehsalı 14,4 faiz, alkoqolsuz içkilərin istehsalı isə 13,0 faiz artmışdır.

Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 99,9 | 124,1 | 95,8 |
| Yanvar-fevral | 112,7 | 117,9 | 134,7 |
| Yanvar-mart | 113,6 | 125,1 | 106,6 |
| Yanvar-aprel | 112,2 | 118,1 | 109,8 |
| Yanvar-may | 113,3 | 127,4 | 108,4 |
| Yanvar-iyun | 111,9 | 126,5 | 107,0 |
| Yanvar-iyul | 111,7 | 126,0 | 110,0 |
| Yanvar-avqust | 111,2 | 126,7 | 106,0 |
| Yanvar-sentyabr | 110,8 | 125,7 | 104,6 |
| Yanvar-oktyabr | 110,7 | 127,2 | 103,8 |
| Yanvar-noyabr | 109,8 | 127,5 | 109,6 |
| Yanvar-dekabr | 109,2 | 123,0 | 112,8 |
| **2024-cü il** | | | |
| Yanvar | 108,7 | 106,3 | 128,3 |
| Yanvar-fevral | 103,9 | 128,9 | 99,4 |
| Yanvra-mart | 97,4 | 124,5 | 115,6 |
| Yanvar-aprel | 100,7 | 127,5 | 119,2 |
| Yanvar-may | 104,1 | 116,0 | 118,4 |
| Yanvar-iyun | 104,6 | 114,9 | 118,0 |
| Yanvar-iyul | 106,2 | 115,8 | 111,2 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 17331,3 | 110,7 | 54,0 |
| Meyvə şirələri, min dkl | 2483,9 | 94,3 | 570,6 |
| Meyvə-tərəvəz konservləri, ton | 95403,6 | 93,1 | 19299,3 |
| Duru bitki yağları, ton | 25108,6 | 114,4 | 5173,5 |
| Marqarin, ton | 29932,4 | 100,0 | 7177,4 |
| Qaymaq, xama, ton | 5954,6 | 118,5 | - |
| Kərə yağı, ton | 16625,5 | 105,8 | 61,6 |
| Pendir və kəsmik, ton | 31919,4 | 102,5 | 75,5 |
| Unlu qənnadı məmulatlar, ton | 41366,5 | 101,5 | 317,2 |
| Makaron məmulatları, ton | 3366,4 | 113,7 | - |
| Şəkər, qənd, min ton | 162,2 | 85,0 | 11,9 |
| Şəkərli qənnadı məmulatları, ton | 4625,5 | 59,2 | 59,0 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Çay, ton | 7024,0 | 107,9 | 97,6 |
| Qida duzu, min ton | 49,9 | 122,9 | 2,2 |
| **İçki məhsulları** | | | |
| Alkoqolsuz içkilər, min dkl | 29844,2 | 113,0 | 609,6 |
| Şirinləşdirilməmiş sular, min dkl | 18238,4 | 128,8 | 1415,8 |
| Viski, brendi, min dkl | 405,3 | 2,7 d. | 61,1 |
| Üzüm şərabı, min dkl | 616,2 | 90,4 | 679,1 |
| Araq, min dkl | 835,1 | 113,9 | 195,0 |
| Pivə, min dkl | 3136,0 | 97,2 | 243,3 |
| **Tütün məmulatları** | | | |
| Siqaret və siqarlar, milyon ədəd | 9197,2 | 105,8 | 919,7 |
| Tütün, ton | 2589,4 | 2,6 d. | 359,1 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 247,8 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 24,5 faiz, geyim istehsalında 3,8 faiz artım, toxuculuq sənayesində isə 9,8 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 11

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 117,5 | 125,4 | 2,9 d. |
| Yanvar-fevral | 125,6 | 117,3 | 3,7 d. |
| Yanvar-mart | 128,0 | 98,9 | 108,2 |
| Yanvar-aprel | 140,5 | 76,8 | 103,5 |
| Yanvar-may | 149,9 | 71,6 | 99,6 |
| Yanvar-iyun | 148,7 | 67,1 | 83,5 |
| Yanvar-iyul | 143,0 | 76,6 | 80,9 |
| Yanvar-avqust | 123,5 | 86,4 | 93,3 |
| Yanvar-sentyabr | 119,4 | 83,4 | 93,4 |
| Yanvar-oktyabr | 111,4 | 87,7 | 91,2 |
| Yanvar-noyabr | 112,7 | 86,7 | 88,6 |
| Yanvar-dekabr | 108,8 | 84,8 | 98,0 |
| **2024-cü il** | | | |
| Yanvar | 118,0 | 127,5 | 2,1 d. |
| Yanvar-fevral | 106,7 | 137,1 | 2,2 d. |
| Yanvar-mart | 109,0 | 121,1 | 137,3 |
| Yanvar-aprel | 91,4 | 119,1 | 125,2 |
| Yanvar-may | 88,9 | 121,3 | 112,0 |
| Yanvar-iyun | 86,1 | 108,1 | 104,4 |
| Yanvar-iyul | 90,2 | 103,8 | 124,5 |

Cədvəl 12

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq mahlıcı, ton | 36135,2 | 84,9 | 25137,6 |
| Pambıq ipliyi, ton | 8905,7 | 97,4 | 4206,7 |
| Pambıq parçalar, min kv.m | 14611,0 | 104,2 | 52,7 |
| Pambıq yataq ağları, min ədəd | 24,7 | 155,3 | 6,7 |
| Xalça və xalça məmulatları, min kv.m | 2,0 | 95,2 | 5,6 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 392,9 | 181,1 | 40,2 |
| İstehsalat və peşə komplektləri, min ədəd | 1320,2 | 126,7 | 37,7 |
| Alt geyim, min ədəd | 562,3 | 138,1 | 13,1 |
| Sair geyim, min ədəd | 2799,3 | 75,7 | 1346,5 |
| Corab məmulatları, min cüt | 2064,1 | 100,2 | 24,5 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Emal edilmiş dəri, min kv.m | 16,0 | 83,8 | 140,0 |
| Ayaqqabı, min cüt | 458,3 | 143,0 | 25,9 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 2908,0 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artmışdır. Neft məhsullarından mazut istehsalı 3,3 dəfə, ağ neft istehsalı 9,5 faiz, neft bitumu istehsalı 7,6 faiz, sürtgü yağları istehsalı 7,1 faiz, avtomobil benzini istehsalı 0,5 faiz artmış, neft koksu istehsalı isə 15,3 azalmışdır.

Cədvəl 13

## Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 842,7 | 100,5 | 31,9 |
| Ağ neft, min ton | 366,0 | 109,5 | 32,2 |
| Qazoyllar (dizel yanacağı), min ton | 1333,5 | 98,7 | 89,4 |
| Mazut, min ton | 13,1 | 3,3 d. | 4,3 |
| Sürtkü yağları, min ton | 37,9 | 107,1 | 5,8 |
| Maye qazlar, min ton | 114,5 | 81,2 | 1,4 |
| Neft koksu; neft bitumu və neft məhsullarının digər qrupları, min ton | 649,9 | 104,8 | 39,0 |
| ondan: | | | |
| neft bitumu, min ton | 148,1 | 107,6 | 16,1 |
| neft koksu, min ton | 120,5 | 84,7 | 22,6 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 1226,6 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 69,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 25,3 faiz, kimya sənayesi məhsullarının istehsalı isə 8,2 faiz artmışdır.

Kimya sənayesi məhsullarından karbamid istehsalı 94,0 faiz, metanol istehsalı 13,2 faiz, azot istehsalı 0,9 faiz, rezin və plastik kütlə məmulatlarından polietilendən başqa, digər plastmas kisələr və çantalar istehsalı 3,0 dəfə, məsaməli plastik kütlədən sair plastinlər, lövhələr istehsalı 60,4 faiz, polietilendən kisə və çantalar istehsalı 41,9 faiz, plastmas butulkalar, flakonlar və oxşar məmulatlar istehsalı isə 21,3 faiz artmışdır.

Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 81,9 | 54,5 | 97,4 |
| Yanvar-fevral | 82,8 | 159,4 | 123,9 |
| Yanvar-mart | 88,8 | 168,8 | 116,9 |
| Yanvar-aprel | 100,9 | 95,6 | 112,2 |
| Yanvar-may | 108,9 | 83,6 | 116,5 |
| Yanvar-iyun | 103,1 | 72,7 | 116,0 |
| Yanvar-iyul | 103,6 | 86,1 | 119,5 |
| Yanvar-avqust | 106,0 | 102,8 | 120,9 |
| Yanvar-sentyabr | 108,0 | 102,9 | 117,6 |
| Yanvar-oktyabr | 108,1 | 104,6 | 119,8 |
| Yanvar-noyabr | 108,3 | 101,1 | 120,4 |
| Yanvar-dekabr | 106,9 | 90,9 | 118,5 |
| **2024-cü il** | | | |
| Yanvar | 98,6 | 2,8 d. | 141,0 |
| Yanvar-fevral | 114,7 | 151,0 | 128,4 |
| Yanvar-mart | 116,7 | 100,9 | 126,2 |
| Yanvar-aprel | 108,6 | 106,4 | 130,5 |
| Yanvar-may | 105,1 | 129,6 | 125,7 |
| Yanvar-iyun | 107,8 | 153,5 | 126,7 |
| Yanvar-iyul | 108,2 | 169,1 | 125,3 |

Qrafik 5

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Təsirsiz qazlar, min kub metr | 25225,2 | 87,5 | 66,6 |
| ondan: | | | |
| azot, min kub metr | 13947,8 | 100,9 | 63,0 |
| Lak-boya məmulatları, ton | 20556,5 | 101,7 | 556,0 |
| Qeyri-üzvi kimyəvi maddələr, min ton | 19310,0 | 115,9 | 6630,0 |
| ondan: | | | |
| yod, ton | 114,4 | 95,7 | 13,9 |
| Üzvi kimyəvi maddələr, min ton | 545,9 | 97,4 | 29,0 |
| ondan: | | | |
| etilen, min ton | 87,3 | 84,6 | 0,3 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| propen (propilen), min ton | 83,3 | 89,5 | 0,9 |
| metanol (metil spirti), min ton | 296,6 | 113,2 | 19,2 |
| Etil spirti, min dkl | 39,9 | 123,9 | 17,2 |
| Gübrə və azot birləşmələri, min ton | 364,0 | 193,9 | 45,8 |
| ondan: | | | |
| karbamid, min ton | 363,9 | 194,0 | 45,7 |
| İlkin formada plastik kütlə, min ton | 168,0 | 86,0 | 29,6 |
| ondan: | | | |
| polietilen, min ton | 83,3 | 81,7 | 18,8 |
| Yapışqan və yapışdırıcı maddələr, min ton | 60,1 | 95,4 | 3,6 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Dərmanlar, min manat | 7341,7 | 128,5 | 1297,3 |
| Tibbi maskalar, milyon ədəd | 1,5 | 166,7 | 5,9 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Plastmas çubuqlar, millər və profillər, ton | 4226,5 | 90,3 | 3,0 |
| Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton | 21897,1 | 114,0 | 2131,6 |
| Polietilendən kisə və çantalar, ton | 11641,2 | 141,9 | 381,0 |
| Plastmas butulkalar, flakonlar və oxşar məmulatlar, min ədəd | 109829,3 | 121,3 | 18334,4 |
| Polietilendən başqa, digər plastmas kisələr və çantalar, ton | 2458,0 | 3,0 d. | 227,0 |
| Döşəmə, divar və tavan üçün plastik kütlədən rulon və ya plitka şəklində örtük, min kv. metr | 165,2 | 117,1 | - |
| Digər plastmasdan tikinti məmulatları, ton | 1063,9 | 74,9 | 811,2 |
| Məsaməli plastik kütlədən sair plastinlər, lövhələr, ton | 1826,9 | 160,4 | 29,7 |

**Tikinti materiallarının istehsalı** sahəsində 2024-cü ilin yanvar-iyul aylarında istehsalın ümumi dəyəri 779,7 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 30,2 faiz artmışdır. Dövr ərzində sementdən, betondan kərpiclər və oxşar məmulatların istehsalı 2,3 dəfə, asfalt istehsalı 56,2 faiz, beton istehsalı 31,9 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 25,6 faiz, sement istehsalı 12,8 faiz, tikinti gipsinin istehsalı isə 10,4 faiz artmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Tikinti şüşəsi, min kv. metr | 5860,4 | 111,8 | 1437,5 |
| Tikinti kərpicləri, min kub metr | 354,1 | 111,0 | 2,0 |
| Sement klinkerləri, min ton | 2338,1 | 107,9 | 162,3 |
| Sement, min ton | 2356,2 | 112,8 | 68,5 |
| Əhəng, min ton | 18,8 | 58,2 | 5,6 |
| Gips məmulatları, min ton | 66,7 | 98,5 | 9,6 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| ondan: | | | |
| tikinti gipsi, min ton | 50,0 | 110,4 | 1,9 |
| Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, min ton | 89,5 | 2,3 d. | 17,0 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 20,6 | 125,6 | - |
| Beton, min ton | 2738,9 | 131,9 | - |
| Asfalt, min ton | 50,3 | 156,2 | 0,1 |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində 2024-cü ilin yanvar-iyul aylarında 771,8 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesi məhsullarının istehsalında 29,2 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 19,5 faiz artım müşahidə olunmuşdur. 2024-cü ilin yanvar-iyul aylarında metallurgiya sənayesi üzrə mis məftilin istehsalı 4,7 dəfə, alüminium məmulatlarının istehsalı 56,8 faiz, armatur istehsalı 31,0 faiz, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan sair məmulatların istehsalı isə 9,6 faiz artmışdır.

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2023-cü il** | | |
| Yanvar | 62,3 | 75,5 |
| Yanvar-fevral | 64,6 | 95,8 |
| Yanvar-mart | 55,8 | 98,7 |
| Yanvar-aprel | 58,6 | 93,8 |
| Yanvar-may | 62,1 | 109,7 |
| Yanvar-iyun | 66,3 | 121,5 |
| Yanvar-iyul | 68,9 | 119,1 |
| Yanvar-avqust | 69,3 | 117,0 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| Yanvar-sentyabr | 71,1 | 113,7 |
| Yanvar-oktyabr | 74,6 | 123,0 |
| Yanvar-noyabr | 77,8 | 119,2 |
| Yanvar-dekabr | 81,1 | 130,1 |
| **2024-cü il** | | |
| Yanvar | 148,7 | 118,3 |
| Yanvar-fevral | 175,9 | 97,6 |
| Yanvar-mart | 149,7 | 99,9 |
| Yanvar-aprel | 155,0 | 112,6 |
| Yanvar-may | 136,5 | 110,2 |
| Yanvar-iyun | 132,0 | 113,9 |
| Yanvar-iyul | 129,2 | 119,5 |

Cədvəl 18

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 223,8 | 131,4 | 22,2 |
| Armatur, min ton | 227,9 | 131,0 | 12,2 |
| Polad borular, min ton | 60,4 | 34,9 | 1,3 |
| Emal edilməmiş qurğuşun, alüminium, sink, nikel və s., min ton | 15,3 | 73,6 | 5,2 |
| Alüminium məmulatları, ton | 35563,3 | 156,8 | 2349,6 |
| Mis məftil, ton | 347,2 | 4,7 d. | - |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Metaldan konstruksiyalar, ton | 11881,6 | 87,9 | 11970,4 |
| İzolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatlar, ton | 5081,5 | 101,4 | - |
| Metaldan sair məmulatlar, ton | 14400,8 | 109,6 | 61,7 |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 2024-cü ilin yanvar-iyul aylarında 139,7 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 73,6 faiz, elektrik avadanlıqlarının istehsalı isə 33,9 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə noutbukların istehsalı 2,2 dəfə, güc transformatorlarının istehsalı isə 58,5 faiz artmışdır.

Cədvəl 19

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2023-cü il** | | |
| Yanvar | 144,6 | 130,9 |
| Yanvar-fevral | 104,9 | 125,8 |
| Yanvar-mart | 135,7 | 108,7 |
| Yanvar-aprel | 2,6 d. | 101,5 |
| Yanvar-may | 2,1 d. | 102,4 |
| Yanvar-iyun | 188,9 | 106,4 |
| Yanvar-iyul | 2,0 d. | 99,8 |
| Yanvar-avqust | 180,4 | 99,3 |
| Yanvar-sentyabr | 160,2 | 103,1 |
| Yanvar-oktyabr | 165,0 | 107,8 |
| Yanvar-noyabr | 174,3 | 110,3 |
| Yanvar-dekabr | 88,1 | 116,2 |
| **2024-cü il** | | |
| Yanvar | 167,9 | 124,9 |
| Yanvar-fevral | 116,2 | 118,3 |
| Yanvar-mart | 107,9 | 116,8 |
| Yanvar-aprel | 131,3 | 117,7 |
| Yanvar-may | 137,5 | 122,2 |
| Yanvar-iyun | 174,4 | 118,5 |
| Yanvar-iyul | 173,6 | 133,9 |

Cədvəl 20

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kompüter, elektron və optik məhsulların istehsalı** | | | |
| Noutbuklar, ədəd | 1006 | 2,2 d. | - |
| Stolüstü kompüterlər, ədəd | 976 | 30,7 | - |
| Ölçmə cihazları, min ədəd | 289,8 | 154,0 | 12,7 |
| **Elektrik avadanlıqlarının istehsalı** | | | |
| Güc transformatorları, ədəd | 553 | 158,5 | - |
| Elektrik tənzimləyici cihazlar, ədəd | 3101 | 67,4 | - |
| Digər elektrik naqilləri, ton | 6066,2 | 113,8 | 1057,1 |
| Məişət soyuducuları və dondurucuları, ədəd | 270 | 46,2 | 69 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 2024-cü ilin yanvar-iyul aylarında 421,6 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 49,9 faiz artmış, maşın və avadanlıqların istehsalı 28,7 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 45,2 faiz azalmışdır. 2024-cü ilin yanvar-iyul aylarında 2524 ədəd və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 658 ədəd çox minik avtomobili istehsal olunmuşdur. Dövr ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə traktorların istehsalı 22,1 faiz azalmışdır.

Cədvəl 21

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 180,3 | 107,9 | 76,5 |
| Yanvar-fevral | 110,4 | 2,1 d. | 77,0 |
| Yanvar-mart | 125,4 | 2,1 d. | 99,6 |
| Yanvar-aprel | 123,5 | 169,2 | 72,7 |
| Yanvar-may | 109,0 | 132,9 | 69,4 |
| Yanvar-iyun | 110,9 | 134,9 | 81,2 |
| Yanvar-iyul | 120,0 | 138,7 | 83,0 |
| Yanvar-avqust | 114,9 | 152,1 | 82,3 |
| Yanvar-sentyabr | 121,1 | 131,2 | 78,9 |
| Yanvar-oktyabr | 130,2 | 133,9 | 83,8 |
| Yanvar-noyabr | 137,4 | 152,1 | 90,1 |
| Yanvar-dekabr | 177,7 | 148,1 | 95,9 |
| **2024-cü il** | | | |
| Yanvar | 100,0 | 154,1 | 33,5 |
| Yanvar-fevral | 84,8 | 130,7 | 49,6 |
| Yanvar-mart | 80,5 | 99,6 | 54,9 |
| Yanvar-aprel | 83,2 | 122,5 | 72,7 |
| Yanvar-may | 80,5 | 131,3 | 81,6 |
| Yanvar-iyun | 72,5 | 148,0 | 52,0 |
| Yanvar-iyul | 71,3 | 149,9 | 54,8 |

Cədvəl 22

## Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Maşın və avadanlıqların istehsalı** | | | |
| Nasoslar, ədəd | 3367 | 105,1 | 284 |
| ondan: | | | |
| ştanqlı quyu nasosları, ədəd | 3318 | 110,8 | 226 |
| Kran, qapaq və klapanlar, ton | 139,6 | 81,8 | 81,5 |
| ondan: | | | |
| fontan armaturu, ton | 25,2 | 66,1 | - |
| Traktorlar, ədəd | 352 | 77,9 | 11 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | | | |
| Minik avtomobilləri, ədəd | 2524 | 135,3 | 373 |
| Yük avtomobilləri, ədəd | 290 | 142,2 | 62 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2024-cü ilin yanvar-iyul aylarında 1794,7 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 341,7 milyon manat təşkil etmişdir.

Cədvəl 23

### Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1794,7 | 99,7 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 341,7 | 109,7 |

Cədvəl 24

### Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | |
| Elektrik enerjisi, mln. kVt.s | 15236,3* | 99,3 |
| ondan əmtəəlik | 14729,0 | 99,4 |
| istilik elektrik stansiyalarının istehsalı | 12550,7 | 91,9 |
| ondan: tullantıların yandırılmasından alınan elektrik enerjisi | 133,0 | 105,6 |
| su elektrik stansiyalarının istehsalı | 1849,0 | 169,7 |
| külək elektrik stansiyalarının istehsalı | 33,8 | 90,4 |
| günəş elektrik stansiyalarının istehsalı | 295,5 | 7,5 d. |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, mln. kub metr | 327,0 | 108,0 |

*) əsas fəaliyyəti elektrik enerjisinin istehsalı olmayan müəssisələr nəzərə alınmadan

# Tikinti

## Əsas kapitala yönəldilmiş investisiyalar

2024-cü ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9438,7 milyon manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 0,4 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 2,9 faiz artmışdır. Ümumi sərmayənin 4914,8 milyon manatı və ya 52,1 faizi məhsul istehsalı sahələrinin, 3404,4 milyon manatı (36,1 faizi) xidmət sahələrinin, 1119,5 milyon manatı (11,8 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 57,1 faizi dövlət, 42,9 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 70,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 81,9 faizini təşkil etmişdir.

2024-cü ilin yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş ümumi investisiyanın 39,6 faizi sənaye, 26,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 22,7 faizi tikinti, 3,0 faizi informasiya və rabitə, 1,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,7 faizi dövlət idarəetməsi və müdafiə, hər birində 0,6 faiz olmaqla, ticarət; nəqliyyat vasitələrinin təmiri, təhsil, 0,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət, hər birində 0,1 faiz olmaqla, istirahət, əyləncə və incəsənət, digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilmişdir.

Cədvəl 25

## İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dəyəri

| İqtisadiyyatın sahələri | 2024-cü ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **9438,7** | **102,0** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **153,3** | **46,5** | **1,6** |
| **Sənaye** | **3737,9** | **99,8** | **39,6** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 2599,7 | 84,4 | 27,5 |
| Emal sənayesi | 832,3 | 2,1 d. | 8,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 241,9 | 131,4 | 2,6 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 64,0 | 71,2 | 0,7 |
| **Tikinti** | **2143,1** | **140,9** | **22,7** |
| ondan mənzil tikintisi | 1119,5 | 2,4 d. | 11,9 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **55,3** | **67,0** | **0,6** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **2495,8** | **85,0** | **26,4** |
| o cümlədən: nəqliyyat | 2495,0 | 85,0 | 26,4 |
| poçt və kuryer fəaliyyəti | 0,8 | 34,7 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **166,2** | **3,5 d.** | **1,8** |
| **İnformasiya və rabitə** | **286,7** | **129,3** | **3,0** |
| ondan rabitə | 262,7 | 121,5 | 2,8 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **140,3** | **136,5** | **1,5** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **2,1** | **2,3 d.** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **17,5** | **2,4 d.** | **0,2** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **70,3** | **4,5 d.** | **0,8** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **64,9** | **55,3** | **0,7** |

...ardı

| İqtisadiyyatın sahələri | 2024-cü ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Təhsil** | **56,2** | **100,8** | **0,6** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **31,2** | **75,7** | **0,3** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **5,7** | **111,8** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **12,2** | **61,3** | **0,1** |

2024-cü ilin yanvar-iyul aylarında neft-qaz sektoruna 3297,5 milyon manatlıq investisiya yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilmiş 6141,2 milyon manatlıq investisiyanın 440,3 milyon manatı (ümumi sərmayənin 4,7 faizi) qeyri neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

2024-cü ilin yanvar-iyul aylarında Bakı şəhərində Dövlət Sərhəd Xidmətinin hərbi hospital kompleksi, "Crescent Mall" ticarət mərkəzi, "Zəngilan" tankeri, Gəncə şəhərində Gəncə İdman Sarayı, Abşeron rayonunda Palçıq Vulkanları Turizm Kompleksi, Cəbrayıl rayonunda "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları, Füzuli rayonunda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunel, Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyaları, Lənkəran rayonunda Lənkəran regional "Asan xidmət" mərkəzi, Qəbələ rayonunda 110/35/10 kV-luq "Hacıalılı" elektrik yarımstansiyası, Regional Təlim Mərkəzi, Qəbələ Rayon Mərkəzi Xəstəxanası, Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolu, Şuşa rayonunda yaşayış kompleksi, Şuşa sutəmizləyici qurğular kompleksi, Zəngilan rayonunda "Ağalı" hoteli, "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyaları, Zəngilan məscidi, və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş investisiyanın 1628,8 milyon manatı

(95,2 faizi) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan, Qırğızıstan, BƏƏ və Fransa sərmayədarlarına məxsus olmuşdur.

Cədvəl 26

**2024-cü ilin yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş investisiyalar**
(bütün maliyyə mənbələri hesabına)

| | 2024-cü ilin yanvar-iyul aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə |
|---|---|---|
| **Əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat** | **9438,7** | **102,0** |
| ondan: tikinti-quraşdırma işlərinə | 6632,7 | 97,8 |
| ümumi yekundan: məhsul istehsalı sahələrinə | 4914,8 | 96,0 |
| xidmət sahələrinə | 3404,4 | 93,2 |
| yaşayış evlərinin tikintisinə | 1119,5 | 2,4 d. |
| ümumi yekundan: neft-qaz sektoruna | 3297,5 | 100,4 |
| qeyri neft-qaz sektoruna | 6141,2 | 102,9 |
| ondan: qeyri neft-qaz emal sənayesi | 125,9 | 79,5 |
| ümumi yekundan: xarici mənbələrdən yönəldilmiş investisiyalar | 1710,1 | 75,3 |
| o cümlədən neft-qaz sektoru | 1434,1 | 75,9 |
| qeyri neft-qaz sektoru | 276,0 | 72,3 |
| daxili mənbələrdən yönəldilmiş investisiyalar | 7728,6 | 110,7 |
| o cümlədən neft-qaz sektoru | 1863,4 | 133,5 |
| qeyri neft-qaz sektoru | 5865,2 | 105,0 |

2024-cü ilin yanvar-iyul aylarında tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 82,1 faizini tikinti, yenidənqurma və genişləndirmə, 8,4 faizini əsaslı təmir, 4,8 faizini cari təmir, 4,7 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 87,6 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 7

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)



# Kənd təsərrüfatı

2024-cü ilin yanvar-iyul ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7508,2 milyon manat təşkil etmişdir ki, onun da 3671,4 milyon manatı heyvandarlıq, 3836,8 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Qrafik 8

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 0,8 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,5 faiz, bitkiçilik məhsulları üzrə 0,2 faiz artmışdır.

Cədvəl 27

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | heyvandarlıq məhsulları | bitkiçilik məhsulları |
| **2023-cü il** | | | |
| Yanvar | 103,3 | 103,4 | 102,0 |
| Yanvar-fevral | 103,3 | 103,4 | 101,9 |
| Yanvar-mart | 103,4 | 103,5 | 101,3 |
| Yanvar-aprel | 103,5 | 103,5 | 103,2 |
| Yanvar-may | 105,2 | 103,5 | 110,9 |
| Yanvar-iyun | 103,4 | 103,7 | 103,0 |
| Yanvar-iyul | 103,3 | 103,4 | 103,2 |
| Yanvar-avqust | 103,3 | 103,4 | 103,2 |
| Yanvar-sentyabr | 103,0 | 103,5 | 102,5 |
| Yanvar-oktyabr | 103,0 | 103,3 | 102,7 |
| Yanvar-noyabr | 103,1 | 103,3 | 102,8 |
| Yanvar-dekabr | 103,0 | 103,2 | 102,7 |
| **2024-cü il** | | | |
| Yanvar | 101,2 | 101,2 | 100,8 |
| Yanvar-fevral | 99,9 | 99,7 | 103,8 |
| Yanvar-mart | 101,1 | 101,0 | 102,9 |
| Yanvar-aprel | 101,6 | 101,5 | 102,7 |
| Yanvar-may | 103,1 | 101,7 | 107,4 |
| Yanvar-iyun | 100,3 | 102,1 | 98,6 |
| Yanvar-iyul | 100,8 | 101,5 | 100,2 |

**Bitkiçilik.** 2024-cü ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil olmaqla, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi cari il iyulun 1-i vəziyyətinə 1637,1 min hektar olmuş və əvvəlki illə müqayisədə 102,1 min hektar və yaxud 6,7 faiz artmışdır. Ümumi əkin sahəsi kənd təsərrüfatı müəssisələri üzrə 44,3 faiz, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə 2,1 faiz artmışdır.

Ölkə üzrə əkin sahələrinin 1025,0 min hektarını və yaxud 62,6 faizini dənli və dənli paxlalı bitkilərin, 127,9 min hektarını (7,8 faiz) texniki bitkilərin, 128,7 min hektarını (7,9 faiz) kartof, tərəvəz və bostan bitkilərinin, 355,5 min hektarını (21,7 faiz) yemlik bitkilərin əkin sahələri təşkil etmişdir.

Qrafik 9

**Kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin strukturu, yekuna nisbətən**




1025,0 min hektar sahədə əkilmiş dənli və dənli paxlalı bitkilərin 550,7 min hektarını (53,7 faiz) buğda, 420,7 min hektarını (41,0 faiz) arpa, 29,3 min hektarını (2,9 faiz) qarğıdalı, 14,2 min hektarını (1,4 faiz) paxlalı bitkilər, 10,1 min hektarını (1,0 faiz) isə digər dənli bitkilərin əkin sahələri təşkil etmişdir.

Dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin əsas hissəsini payızlıq dənli bitkilər təşkil edir. Belə ki, keçən ilin payızında dən və yaşıl yem üçün əkilmiş 1026,3 min hektar sahədən 961,7 min hektar payızlıq dənli bitkilərin sahəsi cari ilin yaz əkini dövrünün sonunadək salamat qalmışdır ki, bu da ümumi dənli və dənli paxlalı bitkilərin əkin sahəsinin 93,8 faizinə bərabərdir. 53,0 min hektar sahədə əkilmiş payızlıq dənli bitkilər tamamilə məhv olmuş, 6,4 min hektar sahə yem üçün istifadə edildikdən sonra yerində yazlıq bitkilər əkilmiş, payızlıq dənli bitkilərin 5,2 min hektar sahəsi isə yem üçün saxlanılmışdır.

Cədvəl 28

## Əkin sahələrinin qəti uçotunun yekunları, min hektar

| | 2024-cü il | 2023-cü il | 2024-cü il 2023-cü ilə nisbətən, %-lə |
|---|---|---|---|
| **Əkin sahəsi - cəmi** | **1 637,1** | **1 535,0** | **106,7** |
| **Dənli və dənli paxlalı bitkilər - cəmi** | **1 025,0** | **948,3** | **108,1** |
| ondan:<br>payızlıq və yazlıq buğda | 550,7 | 542,8 | 101,4 |
| payızlıq və yazlıq arpa | 420,7 | 356,6 | 118,0 |
| dən üçün qarğıdalı | 29,3 | 28,6 | 102,3 |
| paxlalı bitkilər cəmi | 14,2 | 11,7 | 121,1 |
| **Texniki bitkilər - cəmi** | **127,9** | **112,8** | **113,4** |
| ondan:<br>pambıq | 103,1 | 93,7 | 110,0 |
| tütün | 2,6 | 2,7 | 96,5 |
| dən üçün günəbaxan | 13,9 | 9,9 | 140,2 |
| şəkər çuğunduru | 6,8 | 4,5 | 149,9 |
| **Kartof, tərəvəz və bostan bitkiləri - cəmi** | **128,7** | **127,9** | **100,6** |
| o cümlədən:<br>kartof | 46,8 | 49,5 | 94,5 |
| tərəvəz | 62,5 | 61,2 | 102,2 |
| bostan bitkiləri | 19,4 | 17,2 | 112,3 |
| **Yemlik bitkilər - cəmi** | **355,5** | **346,0** | **102,8** |
| ondan:<br>silos və yaşıl yem üçün qarğıdalı | 1,6 | 1,2 | 136,2 |
| birillik otlar | 9,3 | 6,5 | 142,9 |
| cari ilin çoxillik otları | 49,8 | 45,6 | 109,1 |
| keçmiş illərin çoxillik otları | 294,8 | 292,7 | 100,7 |

2024-cü il avqust ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 2935,5 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,2 faiz çox dənli və dənli paxlalı bitkilər, 1245,7 min ton (0,2 faiz çox) tərəvəz, 598,6 min ton (10,0 faiz az) kartof, 429,0 min ton (10,3 faiz çox) bostan məhsulları, 331,1 min ton

(5,1 faiz çox) meyvə və giləmeyvə, 22,0 min ton (2,4 dəfə çox) şəkər çuğunduru, 5,8 min ton (28,2 faiz az) üzüm, 1,8 min ton (35,9 faiz az) günəbaxan, 1,8 min ton (2,2 faiz çox) tütün, 773,4 ton (7,8 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

Cədvəl 29

**Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı**

| | 2024-cü il yanvar-iyul | | | | 2023-cü il yanvar-iyul | | |
|---|---|---|---|---|---|---|---|
| | Yığılmış sahə, min hektar | Yığılmış sahə əkin sahəsinə %-lə | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha | Yığılmış sahə, min hektar | Yığılmış məhsul, min ton | Məhsul-darlıq, sent/ha |
| **Dənli və dənli paxlalı bitkilər-cəmi** | **969,5** | **94,6** | **2935,5** | **30,3** | **899,8** | **2901,5** | **32,2** |
| dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) | 965,5 | 97,0 | 2911,3 | 30,2 | 896,2 | 2880,7 | 32,1 |
| qarğıdalı dən üçün | 4,0 | 13,6 | 24,2 | 60,8 | 3,6 | 20,8 | 58,2 |
| **Dən üçün günəbaxan** | **0,8** | **5,5** | **1,8** | **24,1** | **1,2** | **2,9** | **23,3** |
| **Şəkər çuğunduru** | **0,7** | **10,0** | **22,0** | **324,6** | **0,5** | **9,0** | **198,0** |
| **Tütün** | **2,6**[x)] | **-** | **1,8** | **-** | **2,7**[x)] | **1,8** | **-** |
| **Kartof** | **30,2** | **64,5** | **598,6** | **198,5** | **32,7** | **664,9** | **203,6** |
| **Tərəvəz** | **48,4** | **77,3** | **1245,7** | **257,5** | **48,0** | **1242,8** | **258,7** |
| **Bostan məhsulları** | **16,9** | **87,5** | **429,0** | **253,1** | **15,5** | **388,8** | **251,2** |
| **Meyvə və giləmeyvə** | **229,8**[x)] | **-** | **331,1** | **-** | **227,2**[x)] | **314,9** | **-** |
| **Üzüm** | **15,0**[x)] | **-** | **5,8** | **-** | **15,0**[x)] | **8,1** | **-** |
| **Yaşıl çay yarpağı, ton** | **0,9**[x)] | **-** | **773,4** | **-** | **1,0**[x)] | **717,2** | **-** |

[x)] əkin sahəsi

**Heyvandarlıq.** 2024-cü ilin yanvar-iyul aylarında quş əti də daxil olmaqla diri çəkidə 331,2 min ton ət, 1312,0 min ton süd, 1385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunmuş, 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artmış, yun istehsalı 1,6 faiz, barama istehsalı 32,9 faiz azalmışdır.

Cədvəl 30

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | Ət (diri çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun |
|---|---|---|---|---|
| **2023-cü il** | | | | |
| Yanvar | 45,6 | 160,7 | 182,1 | - |
| Yanvar-fevral | 90,4 | 322,3 | 355,6 | - |
| Yanvar-mart | 138,3 | 501,4 | 543,5 | - |
| Yanvar-aprel | 187,3 | 697,6 | 726,5 | 2,1 |
| Yanvar-may | 226,9 | 909,5 | 918,6 | 11,7 |
| Yanvar-iyun | 285,4 | 1 122,9 | 1 107,4 | 14,0 |
| Yanvar-iyul | 327,0 | 1 305,8 | 1 305,1 | 14,4 |
| Yanvar-avqust | 375,4 | 1 482,0 | 1 481,2 | 14,8 |
| Yanvar-sentyabr | 424,5 | 1 682,9 | 1 662,7 | 15,1 |
| Yanvar-oktyabr | 485,4 | 1 864,5 | 1 832,5 | 15,1 |
| Yanvar-noyabr | 538,2 | 2 062,2 | 2 001,2 | 15,1 |
| Yanvar-dekabr | 647,7 | 2 284,0 | 2 188,2 | 15,1 |
| **2024-cü il** | | | | |
| Yanvar | 46,3 | 160,7 | 188,3 | - |
| Yanvar-fevral | 89,1 | 324,5 | 367,8 | - |
| Yanvar-mart | 139,2 | 504,5 | 571,7 | - |
| Yanvar-aprel | 190,1 | 701,9 | 764,3 | 1,9 |
| Yanvar-may | 230,8 | 915,1 | 983,5 | 11,4 |
| Yanvar-iyun | 290,3 | 1 134,1 | 1 189,1 | 13,8 |
| Yanvar-iyul | 331,2 | 1 312,0 | 1 385,9 | 14,2 |

2024-cü ilin yanvar-iyun aylarında 87,2 min baş inək, camış və düyələr elit törədicilərin toxumları ilə mayalandırılmış və 60,3 min baş bala alınmışdır.

**Meşə təsərrüfatı.** Cari ilin yanvar-iyun aylarında tədarük edilmiş meyvə, meşə ağac və kol cinslərinin toxumlarının 77,4 faizi meşə ağaclarının toxumları (ondan 7,1 faizi iynəyarpaqlılar, 92,9 faizi enliyarpaqlılar), 22,2 faizi meyvə ağaclarının toxumları, 0,4 faizi kol cinslərinin toxumları təşkil edir.

**Balıqçılıq.** 2024-cü ilin birinci yarısında vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 356,0 min manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz az vəsait sərf olunmuşdur. Bu vəsaitin 92,7 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 7,3 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 3262,2 min ədəd balıq körpələrinin 2521,0 min ədədi çəkikimilər, 710,0 min ədədi nərəkimilər, 31,2 min ədədi qızıl balıqlar olmuşdur.

Cədvəl 31

## Mal-qaranın sayı
(ayın 1-i vəziyyətinə, min başla)

| | İribuynuzlu mal-qara | o cümlədən inək və camışlar | Qoyun və keçilər |
|---|---|---|---|
| **2020** | | | |
| Yanvar | 2 646,6 | 1 278,2 | 8 189,2 |
| Aprel | 2 658,3 | 1 284,9 | 8 386,0 |
| İyul | 2 666,8 | 1 286,2 | 8 395,7 |
| Oktyabr | 2 665,0 | 1 286,7 | 8 308,6 |
| **2021** | | | |
| Yanvar | 2 650,7 | 1 280,5 | 8 089,7 |
| Aprel | 2 660,8 | 1 286,9 | 8 279,2 |
| İyul | 2 663,7 | 1 287,6 | 8 267,3 |
| Oktyabr | 2 666,6 | 1 289,2 | 8 197,3 |
| **2022** | | | |
| Yanvar | 2 648,8 | 1 288,0 | 7 899,7 |
| Aprel | 2 666,9 | 1 295,3 | 8 168,8 |
| İyul | 2 654,5 | 1 295,2 | 8 032,5 |
| Oktyabr | 2 646,6 | 1 295,4 | 7 928,4 |
| **2023** | | | |
| Yanvar | 2 618,1 | 1 288,8 | 7 751,7 |
| Aprel | 2 551,8 | 1 253,2 | 7 360,8 |
| İyul | 2 545,3 | 1 253,9 | 7 322,3 |
| Oktyabr | 2 533,2 | 1 251,5 | 7 223,2 |
| **2024** | | | |
| Yanvar | 2 507,7 | 1 235,1 | 7 060,6 |
| Aprel | 2 512,8 | 1 238,8 | 7 206,0 |
| İyul | 2 505,1 | 1 240,1 | 7 132,1 |

# Nəqliyyat

2024-cü ilin yanvar-iyul ayları ərzində yük və sərnişin daşımaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,1 faiz və 8,7 faiz artmışdır.

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 133,5 milyon ton yük daşınmışdır. Yüklərin 3,7 faizi dəniz, 8,1 faizi dəmir yolu, 0,2 faizi hava, 58,1 faizi avtomobil nəqliyyatı, 29,9 faizi isə boru kəməri ilə daşınmışdır.

Qrafik 10

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu,**
faizlə




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 5,9 faiz artmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 78,2 faiz təşkil etmişdir.

2024-cü ilin yanvar-iyul aylarında nəqliyyatçılar 1131,5 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87,9 faizi avtomobil nəqliyyatı, 11,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2024-cü ilin yanvar-iyul aylarında 10,8 milyon ton yük, 4524,2 min sərnişin daşınmış, 2023-cü ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 1,7 faiz, sərnişin daşınmasında isə 20,5 faiz artım müşahidə olunmuşdur.

Orta hesabla sutkada 316 vaqon yüklənmiş, 429 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 14,7 min ton, Qərb istiqaməti üzrə 3,2 min ton, Cənub istiqaməti üzrə isə 0,6 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2024-cü ilin yanvar-iyul aylarında daşınmış yüklərin həcmi 4905,7 min ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,2 faiz azalmışdır. Yüklərin 48,6 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 8059,2 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 6449,0 min tonunu və ya 80,0 faizini tranzit yüklər təşkil etmişdir.

2024-cü il avqust ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 350,4 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2023-cü ilin müvafiq dövrünə nisbətən 23,6 faiz artaraq 15,7 min nəfər olmuşdur.

Qrafik 11

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton**



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 77,6 milyon ton yük, 994,6 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 8,1 faiz və 9,1 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 95,3 faizi avtobus, 4,7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 12,3 faiz, sərnişin dövriyyəsi isə 10,0 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 4,7 faiz artaraq 130,1 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 2221,0 min və ya 41,6 faiz çox sərnişin daşınmış, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 17,3 faiz artaraq 233,4 min ton olmuşdur.

**Magistral neft kəmərləri** ilə 22771,0 min ton neft nəql edilmişdir. Nəqletmənin 75,4 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-iyul ayları ərzində bu kəmər vasitəsilə 17167,0 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 81,3 faizini və ya 13952,5 min tonunu Azərbaycanda hasil edilən neft, 18,7 faizini və ya 3214,5 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil etmişdir.

**Magistral qaz kəmərləri** ilə 23869,0 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,5 faiz azalma müşahidə olunmuşdur. Qazın nəqlinin 56,2 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 13423,3 milyon kub-metr qaz ötürülmüşdür.

2024-cü ilin yanvar-iyun aylarında nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 16407,6 min ton olmuşdur. Yüklərin 7506,7 min tonu və ya 45,8 faizi dəmir yolu nəqliyyatı, 5004,4 min tonu və ya 30,5 faizi avtomobil nəqliyyatı, 3896,5 min tonu və ya 23,7 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhlizlər vasitəsilə daşınmış yüklərin 59,2 faizini və ya 9707,6 min tonunu tranzit yüklər təşkil etmişdir.

Cədvəl 32

## Nəqliyyat sektorunda yük daşınması, min ton

| | 2024-cü ilin yanvar-iyul aylarında | 2023-cü ilin müvafiq dövründə | 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **133 514,8** | **128 307,0** | **104,1** |
| o cümlədən: Dəmir yolu | 10 818,4 | 10 639,6 | 101,7 |
| Dəniz | 4 905,7 | 5 341,5 | 91,8 |
| Hava | 233,4 | 199,0 | 117,3 |
| Boru kəməri | 39 956,7 | 40 341,0 | 99,0 |
| neft kəməri | 22 771,0 | 23 076,5 | 98,7 |
| qaz kəməri | 17 185,7 | 17 264,5 | 99,5 |
| Avtomobil | 77 600,6 | 71 785,9 | 108,1 |

Cədvəl 33

## Nəqliyyat sektorunda yük dövriyyəsi, milyon ton-km

| | 2024-cü ilin yanvar-iyul aylarında | 2023-cü ilin müvafiq dövründə | 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **55 678,2** | **54 901,6** | **101,4** |
| o cümlədən: Dəmir yolu | 4 195,2 | 4 002,7 | 104,8 |
| Dəniz | 2 494,1 | 2 424,3 | 102,9 |
| Hava | 1 967,4 | 1 668,1 | 117,9 |
| Boru kəməri | 38 522,0 | 39 237,9 | 98,2 |
| neft kəməri | 30 884,4 | 31 678,1 | 97,5 |
| qaz kəməri | 7 637,6 | 7 559,8 | 101,0 |
| Avtomobil | 8 499,5 | 7 568,6 | 112,3 |

Cədvəl 34

## Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin

| | 2024-cü ilin yanvar-iyul aylarında | 2023-cü ilin müvafiq dövründə | 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **1 131 452,2** | **1 041 146,3** | **108,7** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 4 524,2 | 3 753,9 | 120,5 |
| Dəniz | 15,7 | 12,7 | 123,6 |
| Hava | 2 221,0 | 1 568,3 | 141,6 |
| Metro | 130 103,4 | 124 311,0 | 104,7 |
| Avtomobil | 994 587,9 | 911 500,4 | 109,1 |
| avtobus | 947 403,3 | 865 999,4 | 109,4 |
| taksi | 47 184,6 | 45 501,0 | 103,7 |

Cədvəl 35

## Nəqliyyat sektorunda sərnişin dövriyyəsi, milyon sərnişin-km

| | 2024-cü ilin yanvar-iyul aylarında | 2023-cü ilin müvafiq dövründə | 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **21 321,5** | **18 359,1** | **116,1** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 204,0 | 180,0 | 113,3 |
| Dəniz | 7,2 | 5,9 | 122,0 |
| Hava | 4 397,2 | 2 912,3 | 151,0 |
| Metro | 1 535,6 | 1 467,2 | 104,7 |
| Avtomobil | 15 177,5 | 13 793,7 | 110,0 |
| avtobus | 14 244,8 | 12 902,9 | 110,4 |
| taksi | 932,7 | 890,8 | 104,7 |

## İnformasiya və rabitə

Bu sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 12,6 faiz artaraq 1939,3 milyon manat təşkil etmişdir ki, onun da 74,0 faizi əhali tərəfindən istehlak olunmuşdur.

Xidmətlərdən əldə edilən gəlirin 35,6 faizi və ya 690,7 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

# İstehlak bazarı

2024-cü ilin yanvar-iyul aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 40,4 milyard manat olmaqla 2023-cü ilin yanvar-iyul aylarına nisbətən müqayisəli qiymətlərlə 4,2 faiz artmışdır.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 4,0 faiz artaraq 38,8 milyard manata bərabər olmuş, onun 45,3 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

Cədvəl 36

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2024-cü ilin yanvar-iyul ayları, milyon manat | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış malların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **40 391,1** | **104,2** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 1 568,7 | 107,5 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 38 822,4 | 104,0 |
| ondan: fərdi sahibkarlar üzrə | 17 584,3 | 101,1 |

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 566,1 manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 24,4 manat çox vəsait xərcləmişdir.

# Əmtəə bazarı

2024-cü ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 32,3 milyard manatlıq, o cümlədən 17,8 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 14,5 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,4 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,9 faiz, qeyri-ərzaq malları üzrə 5,3 faiz artmışdır.

Cədvəl 37

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2024-cü ilin yanvar-iyul ayları, milyon manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **32 263,8** | **100,0** | **103,4** |
| o cümlədən: ərzaq məhsulları | 16 327,2 | 50,6 | 102,1 |
| içkilər və tütün məmulatları | 1 474,6 | 4,6 | 100,4 |
| qeyri-ərzaq malları | 14 462,0 | 44,8 | 105,3 |

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 452,2 manat və ya 2023-cü ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 14,4 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 249,5 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 202,7 manatlıq qeyri-ərzaq malları almışdır.

Cədvəl 38

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq malları üzrə |
| **2023-cü il** | | | |
| Yanvar | 102,9 | 102,2 | 103,6 |
| Yanvar-fevral | 102,8 | 102,2 | 103,5 |
| Yanvar-mart | 103,0 | 102,1 | 104,1 |
| Yanvar-aprel | 102,9 | 102,1 | 104,0 |
| Yanvar-may | 102.9 | 102,0 | 104,1 |
| Yanvar-iyun | 103,0 | 102,1 | 104,2 |
| Yanvar-iyul | 103,1 | 102,0 | 104,3 |
| Yanvar-avqust | 103,2 | 102,1 | 104,5 |
| Yanvar-sentyabr | 103,3 | 102,0 | 104,8 |
| Yanvar-oktyabr | 103,4 | 102,2 | 104,9 |
| Yanvar-noyabr | 103,6 | 102,4 | 105,1 |
| Yanvar-dekabr | 103,7 | 102,5 | 105,2 |
| **2024-cü il** | | | |
| Yanvar | 103,4 | 102,1 | 105,0 |
| Yanvar-fevral | 103,5 | 102,1 | 105,2 |
| Yanvar-mart | 103,1 | 101,8 | 104,9 |
| Yanvar-aprel | 103,3 | 101,9 | 105,1 |
| Yanvar-may | 103,3 | 101,8 | 105,2 |
| Yanvar-iyun | 103,4 | 101,9 | 105,2 |
| Yanvar-iyul | 103,4 | 101,9 | 105,3 |

Cədvəl 39

**Pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu**

| | 2024-cü ilin yanvar-iyul ayları, milyon manat | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **32 263,8** | **103,4** |
| o cümlədən:<br>ərzaq məhsulları, içkilər və tütün məmulatları | 17 801,8 | 101,9 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 4 133,3 | 104,9 |
| elektrik malları və mebellər | 1 560,6 | 105,2 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 382,9 | 121,5 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 735,1 | 101,2 |
| avtomobil benzini və dizel yanacağı | 1 821,2 | 106,8 |
| digər qeyri-ərzaq malları | 5 828,9 | 104,6 |

2024-cü ilin yanvar-iyul aylarında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 55,2 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 12,8 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,6 faizi avtomobil benzini və dizel yanacağının, 4,8 faizi elektrik malları və mebellərin, 2,3 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Qrafik 12

**2024-cü ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu**




2024-cü ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin 0,24 faizi informasiya sistemlərindən (internet, ekstranet və s.) istifadə edilməklə malların alqı-satqısı üzrə həyata keçirilən fəaliyyət sayəsində formalaşmışdır. 2023-cü ilin eyni dövrü ilə müqayisədə elektron ticarət dövriyyəsi real ifadədə 10,5 faiz artaraq 76,0 milyon manat təşkil etmişdir.

Cədvəl 40

## Əmtəə bazarı üzrə əsas göstəricilər

| | 2024-cü ilin yanvar-iyul ayları, milyon manat | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **32 263,8** | **103,4** |
| o cümlədən: müəssisələr üzrə | 9 380,9 | 110,2 |
| fərdi sahibkarlar üzrə | 15 264,6 | 100,2 |
| bazar və yarmarkalar üzrə | 7 618,3 | 102,1 |

Qrafik 13

## 2024-cü ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu



2024-cü ilin yanvar-iyun aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə topdansatış ticarət dövriyyəsi faktiki qiymətlərlə 7,0 faiz artaraq 16255,1 milyon manata bərabər olmuşdur. Dövriyyənin 31,6 faizi ərzaq məhsullarının, 9,6 faizi içkilər və tütün məmulatlarının, 12,1 faizi bərk və maye yanacaqların, 7,2 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 3,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 1,7 faizi elektrik malları və mebellərin, 29,4 faizi isə digər qeyri-ərzaq mallarının topdan satışı sayəsində formalaşmışdır.

2024-cü ilin birinci yarısında pərakəndə ticarət dövriyyəsinin 58,3 faizi Bakı şəhərinin (2023-cü ilin eyni dövrü ilə müqayisədə real ifadədə 4,5 faiz çox), 5,7 faizi Abşeron-Xızı (2,3 faiz çox), 4,7 faizi Mərkəzi Aran (0,1 faiz az), 4,3 faizi Gəncə-Daşkəsən (0,4 faiz çox), 4,2 faizi Lənkəran-Astara (3,7 faiz çox), 3,7 faizi Qazax-Tovuz (2,2 faiz çox), 3,3 faizi Şirvan-Salyan (0,2 faiz çox) , 3,2 faizi Quba-Xaçmaz (0,6 faiz çox), 3,1 faizi Şəki-Zaqatala (1,0 faiz çox), 2,6 faizi Qarabağ (4,8 faiz çox), 2,5 faizi Mil-Muğan (1,2 faiz çox) iqtisadi rayonlarının, 2,2 faizi Naxçıvan Muxtar Respublikasının (1,2 faiz çox), 1,7 faizi Dağlıq Şirvan (0,8 faiz çox), 0,5 faizi isə Şərqi Zəngəzur (4,1 faiz çox) iqtisadi rayonlarının təsərrüfat subyektlərinin ticarət fəaliyyəti sayəsində yaranmışdır.

Cədvəl 41

## Pərakəndə ticarət dövriyyəsi və indeksləri

| | 2023 | | 2024 | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 4298,0 | 102,9 | 4493,8 | 103,4 |
| Fevral | 3918,7 | 102,7 | 4061,2 | 103,2 |
| Mart | 4791,8 | 103,3 | 4919,2 | 102,8 |
| **I rüb** | **13008,5** | **103,0** | **13474,2** | **103,1** |
| Aprel | 3399,4 | 102,2 | 3495,7 | 103,5 |
| May | 4361,6 | 103,0 | 4495,3 | 103,4 |
| İyun | 5543,1 | 104,0 | 5786,0 | 103,8 |
| **II rüb** | **13304,1** | **102,8** | **13777,0** | **104,0** |
| **Yanvar-iyun** | **26312,6** | **103,0** | **27251,2** | **103,4** |
| İyul | 4771,9 | 103,7 | 5012,6 | 103,1 |
| Avqust | 4638,7 | 103,9 | | |
| Sentyabr | 5164,9 | 105,0 | | |
| **III rüb** | **14575,5** | **104,2** | | |
| **Yanvar-sentyabr** | **40888,1** | **103,3** | | |
| Oktyabr | 5285,1 | 105,0 | | |
| Noyabr | 5105,3 | 106,1 | | |
| Dekabr | 7719,2 | 107,6 | | |
| **IV rüb** | **18109,6** | **106,4** | | |
| **İllik** | **58997,7** | **103,7** | | |

Cədvəl 42

## Mal qrupları üzrə pərakəndə ticarət dövriyyəsi və indeksləri

| | **Ərzaq məhsulları, içkilər və tütün məmulatları** | | **Qeyri-ərzaq malları** | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2023** | | | | |
| Yanvar | 2399,8 | 102,2 | 1898,2 | 103,6 |
| Fevral | 2219,3 | 102,1 | 1699,4 | 103,3 |
| Mart | 2811,2 | 102,1 | 1980,6 | 105,1 |
| **I rüb** | **7430,3** | **102,1** | **5578,2** | **104,1** |
| Aprel | 2028,4 | 101,5 | 1371,0 | 103,2 |
| May | 2497,3 | 101,7 | 1864,3 | 104,7 |
| İyun | 2886,9 | 103,2 | 2656,2 | 104,8 |
| **II rüb** | **7412,6** | **102,0** | **5891,5** | **104,3** |
| **Yanvar - iyun** | **14842,9** | **102,1** | **11469,7** | **104,2** |
| İyul | 2684,4 | 102,3 | 2087,5 | 105,4 |
| Avqust | 2646,6 | 102,7 | 1992,1 | 105,5 |
| Sentyabr | 2777,9 | 102,7 | 2387,0 | 107,8 |
| **III rüb** | **8108,9** | **102,5** | **6466,6** | **106,3** |
| **Yanvar - sentyabr** | **22951,8** | **102,0** | **17936,3** | **104,8** |
| Oktyabr | 2882,1 | 104,1 | 2403,0 | 106,0 |
| Noyabr | 2839,1 | 105,3 | 2266,2 | 107,1 |
| Dekabr | 4340,4 | 107,0 | 3378,8 | 108,4 |
| **IV rüb** | **10061,6** | **105,5** | **8048,0** | **107,2** |
| **Yanvar - dekabr** | **33013,4** | **102,5** | **25984,3** | **105,2** |
| **2024** | | | | |
| Yanvar | 2467,3 | 102,1 | 2026,5 | 105,0 |
| Fevral | 2259,1 | 102,1 | 1802,1 | 104,6 |
| Mart | 2817,2 | 101,3 | 2102,0 | 105,0 |
| **I rüb** | **7543,6** | **101,8** | **5930,6** | **104,9** |
| Aprel | 2031,0 | 102,0 | 1464,7 | 105,9 |
| May | 2504,2 | 101,7 | 1991,1 | 105,7 |
| İyun | 2957,6 | 102,2 | 2828,4 | 105,4 |
| **II rüb** | **7492,8** | **102,1** | **6284,2** | **105,7** |
| **Yanvar - iyun** | **15036,4** | **101,9** | **12214,8** | **105,2** |
| İyul | 2765,4 | 101,0 | 2247,2 | 105,9 |

Qrafik 14

**2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu,**

yekuna nisbətən faizlə



# İctimai iaşə xidmətləri

2024-cü ilin yanvar-iyul aylarında ictimai iaşə dövriyyəsi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 8,2 faiz artaraq 1244,6 milyon manat olmuşdur.

Cədvəl 43

**İctimai iaşə dövriyyəsi**

| | 2024-cü ilin yanvar-iyul aylarında, min manat | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **1 244 600,4** | **108,2** |
| o cümlədən: dövlət | 11 335,2 | 109,0 |
| qeyri-dövlət | 1 233 265,2 | 108,2 |
| ondan: fiziki şəxslər | 602 744,6 | 106,8 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 51,1 faizi hüquqi şəxslərin, 48,9 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 9,6 faiz artaraq 630,5 milyon manat olmuşdur.

Cədvəl 44

## İctimai iaşə dövriyyəsinin dinamikası

| | 2023-cü il | | 2024-cü il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 130 563,3 | 122,1 | 146 854,0 | 109,7 |
| Fevral | 124 930,1 | 121,9 | 148 044,0 | 116,0 |
| Mart | 159 272,8 | 122,0 | 157 185,1 | 96,8 |
| **I rüb** | **414 766,2** | **121,9** | **452 083,1** | **106,7** |
| Aprel | 154 468,9 | 130,9 | 162 398,0 | 103,8 |
| May | 174 062,0 | 131,6 | 187 329,4 | 106,2 |
| İyun | 195 536,8 | 116,0 | 228 171,1 | 114,5 |
| **II rüb** | **524 067,7** | **124,9** | **577 898,5** | **108,6** |
| **Yanvar-iyun** | **938 833,9** | **123,5** | **1 029 981,6** | **107,8** |
| İyul | 189 749,7 | 118,1 | 214 618,8 | 110,5 |
| Avqust | 186 101,4 | 119,1 | | |
| Sentyabr | 169 597,8 | 117,4 | | |
| **III rüb** | **545 448,9** | **118,3** | | |
| **Yanvar-sentyabr** | **1 484 282,8** | **121,2** | | |
| Oktyabr | 166 773,9 | 107,4 | | |
| Noyabr | 168 461,5 | 100,3 | | |
| Dekabr | 221 998,7 | 104,1 | | |
| **IV rüb** | **557 234,1** | **103,8** | | |
| **İllik** | **2 041 516,9** | **115,2** | | |

# Əhaliyə göstərilən ödənişli xidmətlər

2024-cü ilin yanvar-iyul aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 7,4 faiz artaraq 6882,7 milyon manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 5165,7 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 75,1 faizini təşkil etmişdir.

Cədvəl 45

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2024-cü ilin yanvar-iyul aylarında, milyon manat | 2024-cü ilin yanvar-iyul ayları 2023-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **6 882,7** | **107,4** |
| o cümlədən: dövlət | 1 469,7 | 108,7 |
| qeyri-dövlət | 5 413,0 | 107,0 |
| ondan: fiziki şəxslər | 1 717,0 | 107,2 |

Cari ilin yanvar-iyul aylarında hər bir ölkə sakini orta hesabla 675,3 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 59,8 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Cədvəl 46

## Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2023-cü il** | | | |
| Yanvar | 108,5 | 110,2 | 103,4 |
| Yanvar-fevral | 111,1 | 112,3 | 107,4 |
| Yanvar-mart | 111,6 | 113,0 | 107,5 |
| Yanvar-aprel | 111,9 | 113,4 | 107,4 |
| Yanvar-may | 113,8 | 114,9 | 110,5 |
| Yanvar-iyun | 115,1 | 115,3 | 114,4 |
| Yanvar-iyul | 115,2 | 114,5 | 117,1 |
| Yanvar-avqust | 115,2 | 114,4 | 117,8 |
| Yanvar-sentyabr | 115,3 | 114,5 | 117,9 |
| Yanvar-oktyabr | 115,3 | 114,7 | 117,1 |
| Yanvar-noyabr | 114,6 | 114,1 | 116,0 |
| Yanvar-dekabr | 114,0 | 113,9 | 114,2 |
| **2024-cü il** | | | |
| Yanvar | 104,9 | 103,3 | 109,9 |
| Yanvar-fevral | 105,3 | 104,8 | 106,9 |
| Yanvar-mart | 105,8 | 105,3 | 107,3 |
| Yanvar-aprel | 106,3 | 106,5 | 105,8 |
| Yanvar-may | 106,3 | 106,9 | 104,7 |
| Yanvar-iyun | 106,9 | 107,2 | 106,1 |
| Yanvar-iyul | 107,4 | 107,4 | 107,2 |

Cədvəl 47

## Əhaliyə göstərilən ödənişli xidmətlər

| | 2023-cü il | | 2024-cü il | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 873,8 | 108,5 | 946,1 | 104,9 |
| Fevral | 851,1 | 114,0 | 919,1 | 105,6 |
| Mart | 883,2 | 112,6 | 962,2 | 106,6 |
| **I rüb** | **2 608,1** | **111,6** | **2 827,4** | **105,8** |
| Aprel | 895,9 | 112,8 | 986,4 | 108,0 |
| May | 916,6 | 121,6 | 998,9 | 106,6 |
| İyun | 907,5 | 122,0 | 1 020,0 | 109,8 |
| **II rüb** | **2 720,0** | **118,7** | **3 005,3** | **108,1** |
| **Yanvar-iyun** | **5 328,1** | **115,1** | **5 832,7** | **106,9** |
| İyul | 914,5 | 115,7 | 1 050,0 | 110,1 |
| Avqust | 919,4 | 115,5 | | |
| Sentyabr | 945,9 | 115,8 | | |
| **III rüb** | **2 779,8** | **115,7** | | |
| **Yanvar-sentyabr** | **8 107,9** | **115,3** | | |
| Oktyabr | 979,2 | 115,6 | | |
| Noyabr | 1 028,4 | 110,5 | | |
| Dekabr | 1 296,1 | 111,2 | | |
| **IV rüb** | **3 303,7** | **112,0** | | |
| **İllik** | **11 411,6** | **114,0** | | |

Qrafik 15

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə**
**qiymət və fiziki  həcm indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 48

| | 2024-cü ilin iyul ayı 2024-cü ilin iyun ayına nisbətən, faizlə | 2024-cü ilin iyul ayı 2023-cü ilin iyul ayına nisbətən, faizlə | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| İstehlak qiymətləri indeksi | 100,9 | 102,7 | 101,0 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 104,6 | 110,3 | 105,3 |
| o cümlədən: neft-qaz sənayesi | 105,5 | 111,7 | 105,9 |
| qeyri neft-qaz sənayesi | 100,4 | 102,5 | 101,2 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 99,8 | 105,4 | 102,9 |
| Nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin qiymət indeksi | 100,7 | 99,3 | 98,2 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,0 | 100,4 | 100,6 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 100,3 | 100,4 |
| İdxal olunan məhsulların qiymət indeksi | 101,1* | 116,7** | 115,9*** |
| İxrac olunan məhsulların qiymət indeksi | 102,4* | 108,1** | 91,2*** |
| o cümlədən: qeyri neft-qaz məhsulları | 101,1* | 112,2** | 111,2*** |

*2024-cü ilin iyun ayı 2024-cü ilin may ayına nisbətən
**2024-cü ilin iyun ayı 2023-cü ilin iyun ayına nisbətən
***2024-cü ilin yanvar-iyun ayları 2023-cü ilin yanvar-iyun aylarına nisbətən

Qrafik 16

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə



Qrafik 17

**İstehlak qiymətləri indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




## İstehlak qiymətləri indeksi

2024-cü ilin iyul ayında istehlak qiymətləri indeksi iyun ayı ilə müqayisədə 100,9 faiz, 2024-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 101,0 faiz təşkil etmişdir.

Cədvəl 49

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | | Qida məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2023-cü il** | | | | | | |
| Yanvar | 101,0 | 113,6 | 113,6 | 101,2 | 117,5 | 117,5 |
| Fevral | 101,5 | 114,1 | 113,9 | 101,8 | 117,1 | 117,3 |
| Mart | 100,7 | 113,6 | 113,8 | 101,3 | 116,8 | 117,1 |
| **I rüb** | **103,2** | - | **113,8** | **104,4** | - | **117,1** |
| Aprel | 100,3 | 112,8 | 113,5 | 100,3 | 115,1 | 116,6 |
| May | 99,6 | 111,5 | 113,1 | 98,9 | 112,7 | 115,8 |
| İyun | 99,1 | 110,6 | 112,7 | 97,9 | 111,5 | 115,1 |
| **II rüb** | **100,7** | - | **111,6** | **100,2** | - | **113,1** |

…ardı...

| | Cəmi məhsullar və xidmətlər | | | Qida məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2023-cü il** | | | | | | |
| İyul | 99,3 | 109,4 | 112,2 | 98,5 | 109,7 | 114,3 |
| Avqust | 99,6 | 108,0 | 111,7 | 99,1 | 107,4 | 113,4 |
| Sentyabr | 100,3 | 105,1 | 110,9 | 100,6 | 104,5 | 112,4 |
| **III rüb** | **98,5** | - | **107,5** | **96,3** | - | **107,2** |
| Oktyabr | 100,4 | 103,9 | 110,2 | 100,8 | 103,1 | 111,4 |
| Noyabr | 99,8 | 102,6 | 109,4 | 99,6 | 101,5 | 110,4 |
| Dekabr | 100,5 | 102,1 | 108,8 | 101,0 | 100,8 | 109,6 |
| **IV rüb** | **100,5** | - | **102,9** | **101,0** | - | **101,8** |
| **2024-cü il** | | | | | | |
| Yanvar | 100,5 | 101,7 | 101,7 | 101,1 | 100,7 | 100,7 |
| Fevral | 100,6 | 100,8 | 101,3 | 100,7 | 99,7 | 100,2 |
| Mart | 100,2 | 100,4 | 101,0 | 100,4 | 98,9 | 99,7 |
| **I rüb** | **101,3** | - | **101,0** | **102,3** | - | **99,7** |
| Aprel | 99,9 | 100,0 | 100,7 | 99,6 | 98,2 | 99,3 |
| May | 99,9 | 100,3 | 100,6 | 99,3 | 98,6 | 99,2 |
| İyun | 99,9 | 101,1 | 100,7 | 99,6 | 100,2 | 99,4 |
| **II rüb** | **100,2** | - | **100,4** | **99,5** | - | **99,0** |
| İyul | 100,9 | 102,7 | 101,0 | 100,2 | 102,0 | 99,7 |

| | Qeyri-qida məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2023-cü il** | | | | | | |
| Yanvar | 101,1 | 112,2 | 112,2 | 100,5 | 109,7 | 109,7 |
| Fevral | 100,4 | 112,2 | 112,2 | 102,0 | 111,4 | 110,6 |
| Mart | 100,3 | 111,6 | 112,0 | 100,2 | 110,8 | 110,6 |
| **I rüb** | **102,2** | - | **112,0** | **102,3** | - | **110,6** |
| Aprel | 100,3 | 111,3 | 111,8 | 100,4 | 110,7 | 110,7 |
| May | 100,1 | 110,7 | 111,6 | 100,3 | 110,5 | 110,6 |
| İyun | 100,1 | 110,3 | 111,4 | 100,1 | 109,8 | 110,5 |
| **II rüb** | **100,8** | - | **110,8** | **101,3** | - | **110,3** |
| İyul | 100,0 | 108,8 | 111,0 | 100,1 | 109,6 | 110,4 |
| Avqust | 100,0 | 108,3 | 110,6 | 100,1 | 108,9 | 110,2 |
| Sentyabr | 100,1 | 105,9 | 110,1 | 100,0 | 105,4 | 109,6 |

…sonu

| | Qeyri-qida məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2023-cü il** | | | | | | |
| **III rüb** | **100,2** | - | **107,6** | **100,3** | - | **107,9** |
| Oktyabr | 100,1 | 104,7 | 109,5 | 100,0 | 104,5 | 109,1 |
| Noyabr | 100,0 | 103,1 | 108,9 | 99,9 | 104,0 | 108,6 |
| Dekabr | 100,0 | 102,7 | 108,4 | 100,1 | 103,7 | 108,2 |
| **IV rüb** | **100,2** | - | **103,5** | **100,1** | - | **104,0** |
| **2024-cü il** | | | | | | |
| Yanvar | 100,1 | 101,7 | 101,7 | 100,0 | 103,2 | 103,2 |
| Fevral | 100,1 | 101,4 | 101,6 | 101,0 | 102,3 | 102,7 |
| Mart | 100,0 | 101,1 | 101,4 | 100,1 | 102,2 | 102,5 |
| **I rüb** | **100,2** | - | **101,4** | **100,8** | - | **102,5** |
| Aprel | 100,1 | 100,9 | 101,3 | 100,1 | 102,0 | 102,4 |
| May | 100,2 | 101,0 | 101,2 | 100,5 | 102,2 | 102,4 |
| İyun | 100,1 | 101,0 | 101,2 | 100,3 | 102,4 | 102,4 |
| **II rüb** | **100,3** | - | **100,9** | **101,0** | - | **102,2** |
| İyul | 100,8 | 101,7 | 101,3 | 102,0 | 104,3 | 102,7 |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 2024-cü ilin iyul ayında iyun ayı ilə müqayisədə 100,7 faiz, əvvəlki ilin iyul ayı ilə müqayisədə 101,7 faiz, 2024-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 101,1 faiz təşkil etmişdir.

Qrafik 18

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi** (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




2024-cü ilin iyul ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi iyun ayı ilə müqayisədə 100,2 faiz, 2024-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 99,7 faiz təşkil etmişdir.

Cədvəl 50

**Qida məhsulları, içkilər və tütün məmulatlarının istehlak qiymətləri indeksləri**

| | 2024-cü ilin iyul ayı 2024-cü ilin iyun ayına nisbətən, faizlə | 2024-cü ilin iyul ayı 2023-cü ilin iyul ayına nisbətən, faizlə | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2023-cü ilin yanvar-iyul ayları 2022-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Çörək, çörək məmulatları və yarmalar | 100,1 | 98,0 | 96,0 | 114,0 |
| Ət və ət məhsulları | 100,4 | 101,2 | 102,4 | 115,6 |
| Balıq və balıq məhsulları | 100,3 | 100,0 | 100,0 | 108,5 |
| Süd və süd məhsulları, yumurta | 101,2 | 97,6 | 97,6 | 111,1 |
| Kərə və bitki yağları | 100,5 | 97,4 | 94,6 | 107,4 |
| Meyvələr | 99,2 | 115,9 | 109,2 | 110,1 |
| Tərəvəzlər | 99,7 | 103,4 | 92,5 | 128,4 |

…ardı

| | 2024-cü ilin iyul ayı 2024-cü ilin iyun ayına nisbətən, faizlə | 2024-cü ilin iyul ayı 2023-cü ilin iyul ayına nisbətən, faizlə | 2024-cü ilin yanvar-iyul ayları 2023-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə | Məlumat üçün: 2023-cü ilin yanvar-iyul ayları 2022-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,1 | 100,4 | 100,1 | 112,4 |
| Digər kateqoriyalara aid edilməyən ərzaq məhsulları | 100,2 | 101,5 | 101,5 | 115,7 |
| Çay, qəhvə, kakao | 100,1 | 100,8 | 100,3 | 115,7 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,7 | 104,9 | 103,5 | 110,0 |
| Araq, brendi (konyak) | 100,3 | 103,8 | 102,0 | 103,3 |
| Tütün məmulatları | 100,0 | 108,1 | 109,6 | 104,5 |

2024-cü ilin iyul ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi iyun ayı ilə müqayisədə 100,8 faiz, 2024-cü ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 101,3 faiz təşkil etmişdir.

Cədvəl 51

## Qeyri-qida məhsullarının istehlak qiymətləri indeksləri

Mərkəzi Bankın məlumatına görə əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 11,2 faiz artaraq 2024-cü il iyul ayının 1-nə milli valyuta ekvivalentində 14180,7 milyon manat təşkil etmişdir. Əmanətlərin 66,1 faizi milli, 33,9 faizi xarici valyutada qoyulmuş, xarici valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz, milli valyutada olan əmanətlərin məbləği isə 15,9 faiz artmışdır.

Cədvəl 71

**Əhalinin əmanətləri**

| | 2024-cü il iyulun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 14180,7 | 111,2 |
| o cümlədən: milli valyutada | 9369,7 | 115,9 |
| xarici valyutada | 4811,0 | 103,2 |

Qrafik 29




İyul ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 Avroya 1,84 (1,84) manata, 100 Türk lirəsinə 5,16 (5,34) manata, 100 Rus rubluna 1,94 (1,88) manata bərabər olmuşdur.

## Sosial müdafiə

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ilkin məlumatlarına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin məbləği ötən ilin müvafiq dövrünə nisbətən 13,5 faiz artırılaraq 3314,5 milyon manata çatdırılmışdır. Sərf olunmuş vəsaitin 97,6 faizini pensiya xərcləri təşkil etmişdir.

2024-cü il iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1101,0 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 10,8 faizini təşkil edir. Onların 64,4 faizi yaşa, 23,3 faizi əlilliyə, 12,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 11,3 faiz artaraq 491,3 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 49,0 faizinə bərabər olmuşdur.

Qrafik 30

**Pensiyaların orta aylıq və əmək pensiyasının minimum aylıq məbləğləri, ilin əvvəlinə,** manat




Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 fevral tarixli 4291 nömrəli sərəncamına əsasən 2024-cü ilin 1 yanvar tarixindən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyaları indeksləşdirilərək 11,2 faiz artırılmışdır.

Bununla yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə müxtəlif növ sosial müavinətlər təyin edilir. Belə ki, 2024-cü il iyulun 1-i vəziyyətinə yaşa görə aylıq müavinət alanların sayı 152,1 min nəfər, əlilliyə görə - 219,2 min nəfər (onlardan 44,0 min nəfəri 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər), ailə başçısını itirməyə görə - 54,5 min nəfər, digər müavinət növlərini alanların sayı isə 22,6 min nəfər olmuşdur.

Eyni zamanda, şəhid ailələrinin, müharibə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş şəxslərin, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının və müddətli həqiqi hərbi xidmət qulluqçularının 4,5 min ailəsinə 6,8 min uşaq üçün, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 179 nəfər qəyyumuna (himayəçisinə) aylıq müavinət verilmişdir. Bundan əlavə, 2797 nəfər bir yaşınadək uşağı olan 2 714 aztəminatlı ailəyə və beşdən çox uşağı olan 2,7 min qadına 11,8 min uşaq üçün aylıq müavinət, əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkən 291 şəxsə isə kompensasiya verilmişdir.

2024-cü ilin altı ayı ərzində məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla, 21,1 min ailəyə 22,0 min uşağın anadan olmasına görə, radiasiya qəzası nəticəsində zərər çəkmiş 3,8 min şəxsə müalicə üçün və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 3,4 min nəfərə birdəfəlik müavinətlər verilmişdir.

2024-cü il iyulun 1-i vəziyyətinə 61,5 min aztəminatlı ailənin 266,3 min üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği 109,6 manat təşkil etmişdir.

Eyni zamanda, müxtəlif kateqoriyadan olan 397,4 min şəxsə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunmuşdur.

Cədvəl 72

## 2024-cü il iyulun 1-i vəziyyətinə əhaliyə təyin olunmuş sosial müavinətlər və kompensasiyalar

(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən)

| | Sosial müavinət və ya kompensasiya təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
|---|---|---|
| **Aylıq sosial müavinətlər və kompensasiya - cəmi [1)]** | **448 459** | **190,92** |
| yaşa görə | 152 089 | 220,00 |
| əlilliyə görə | 219 203 | 199,51 |
| o cümlədən: | | |
| 18 yaşından yuxarı əlilliyi olan şəxslərə | 175 185 | 198,81 |
| 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə | 44 018 | 202,31 |
| ailə başçısını itirməyə görə | 54 539 | 120,00 |
| dövlət qulluqçularına | 28 | 58,00 |
| özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə | 636 | 215,03 |
| bəzi kateqoriya şəxslərin uşaqlarına | 6 609 | 16,34 |
| müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına | 209 | 120,00 |
| 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə (uşaqların sayı) | 2797 | 100,00 |
| beşdən çox uşağa görə (uşaqların sayı) | 11 838 | 105,00 |
| valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) | 179 | 120,00 |
| övladlığa götürülən uşağa görə müavinət | 25 | 216,00 |
| himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət | 16 | 367,50 |
| əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlərə kompensasiya | 291 | 188,00 |

…ardı

| | Sosial müavinət və ya kompensasiya təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
|---|---|---|
| **Birdəfəlik sosial müavinətlər və kompensasiya - cəmi [2] (2024-cü ilin 6 ayı ərzində)** | **32 674** | **x** |
| uşağın anadan olmasına görə: ailələrə | 21 143 | x |
| uşaqlara | 22 042 | 458,85 |
| radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə müalicə üçün | 3 772 | 299,87 |
| dəfn üçün | 3 319 | 499,17 |
| penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə | 3 356 | 1379,89 |
| valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman ödənilən birdəfəlik müavinət | 87 | 3929,21 |
| valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman paltar, ayaqqabı, yumşaq inventar və avadanlıq əvəzinə pul kompensasiyası | 88 | 265,00 |
| Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün müavinət | 10 | 600,00 |

[1] Eyni zamanda bir neçə növ sosial müavinət alan şəxslər üzrə aldıqları sosial müavinətlərin sayı nəzərə alınmaqla.

[2] Məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla

Cədvəl 73

## 2024-cü il iyulun 1-i vəziyyətinə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri

(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən)

| | Təqaüd təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
|---|---|---|
| **Təqaüdlər - cəmi** | **397 420** | **142,21** |
| o cümlədən: | | |
| **Fəxri adlara görə - cəmi** | **4 813** | **152,63** |
| o cümlədən: | | |
| "Xalq" Fəxri adına görə | 253 | 200,00 |
| "Əməkdar" Fəxri adına görə | 4 560 | 150,00 |
| **Fərdi təqaüdlər** | **333** | **1 500,00** |
| **Şəhid ailəsi üçün-** | **18 493** | **385,35** |
| **Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə, onların dul arvadlarına və 18 yaşına çatmamış uşaqlarına** | **180** | **959,26** |
| **“Azərbaycanın Milli Qəhrəmanı” adı verilmiş şəxslərə, onların dul arvadlarına və 18 yaşına çatmamış uaqlarına** | **177** | **1 555,93** |
| **20 Yanvar şəhidinin ailəsi üçün** | **89** | **542,70** |
| **1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına** | **21** | **330,00** |
| **1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə** | **231** | **380,91** |
| **Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə** | **31** | **600,00** |
| **Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə - cəmi** | **19 858** | **385,40** |
| o cümlədən: | | |
| Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə | 14 526 | 382,58 |

…ardı

| | Təqaüd təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
|---|---|---|
| Hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar əlilliyi olan şəxslərə | 2 819 | 386,56 |
| Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar əlilliyi olan şəxslərə | 2 513 | 400,35 |
| **Müharibə veteranlarına – cəmi** | **184 094** | **80,00** |
| o cümlədən: | | |
| Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər | 180 354 | 80,00 |
| Başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrində və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş şəxslər və keçmiş SSRİ silahlı qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri | 3 740 | 80,00 |
| **Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla)** | **52 227** | **200,00** |
| **Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə** | **13 188** | **300,00** |
| **Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilən şəxslərə qulluq edən şəxslərə** | **57 873** | **100,00** |
| **18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə** | **44 061** | **100,00** |
| **Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə - cəmi** | **1 751** | **326,16** |
| o cümlədən: | | |
| elmlər doktoru elmi dərəcəsi olan şəxslərə | 229 | 500,00 |
| fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslərə | 1 522 | 300,00 |

# Hüquqpozmalar

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2024-cü ilin yanvar–iyun ayları ərzində ölkədə 18518 cinayət faktı qeydə alınmışdır ki, bu da 2023-cü ilin müvafiq dövrünün göstəricisindən 5,2 faiz azdır. Əhalinin hər 100 min nəfərinə hesabı ilə qeydə alınmış cinayət hadisələrinin sayı da əvvəlki dövrlə müqayisədə 11 bənd azalaraq 182 olmuşdur. Onların 60,6 faizi az ağır, 24,8 faizi böyük ictimai təhlükə törətməyən, 14,6 faizi ağır və xüsusilə ağır cinayətlərə aiddir.

Cinayətlərin strukturunda 7966 hadisə ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan, 7078 hadisə iqtisadi sahədə, 2820 hadisə şəxsiyyət əleyhinə, 630 hadisə dövlət hakimiyyəti əleyhinə olan, 24-ü isə digər cinayətlərdir.

Qrafik 31

**Qeydə alınmış cinayətlərin strukturu,** yekuna nisbətən, faizlə



Qeydə alınmış şəxsiyyət əleyhinə olan cinayətlərin 87,4 faizini (2466 cinayət hadisəsi) həyat və sağlamlıq əleyhinə olan cinayətlər təşkil edir ki, onların da 1904-ü qəsdən sağlamlığa yüngül zərər vurma, 269-u qəsdən sağlamlığa az ağır zərər vurma, 118-i qəsdən sağlamlığa ağır zərər vurma, 106-sı qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 23-ü əzab vermə, 9-u ehtiyatsızlıqdan adam öldürmə, qalanları isə digər cinayətlərə aiddir.

Cari ilin yanvar–iyun ayları ərzində əcnəbilər tərəfindən və ya onların iştirakı ilə 257 cinayət hadisəsi törədilmişdir ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 50,1 faiz çoxdur.

2024-cü ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə terror xarakterli cinayətlər 3,4 dəfə, kibercinayətlər 3,0 dəfə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma 90,0 faiz, hədə-qorxu ilə tələb etmə 63,2 faiz, yanğın təhlükəsizliyi qaydalarını pozma 44,4 faiz, dələduzluq 23,6 faiz, mənzil toxunulmazlığını pozma 22,2 faiz, vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma 20,1 faiz, xuliqanlıq cinayətləri isə 14,7 faiz artmışdır. Bununla yanaşı, qanunsuz sahibkarlıq 7,0 dəfə, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə 4,0 dəfə, rüşvət cinayətləri 3,8 dəfə, yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə 2,8 dəfə, istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma 2,2 dəfə, mənzillərdən edilən oğurluqlar 42,8 faiz, soyğunçuluq 41,3 faiz, adam oğurluğu 26,7 faiz (onlardan evlənmək məqsədilə adam oğurluğu 20,0 faiz), ekoloji cinayətlər 16,9 faiz, avtonəqliyyatın qaçırılması 12,8 faiz, quldurluq cinayətləri isə 10,3 faiz azalmışdır.

Hesabat dövrü ərzində 11670 nəfər cinayət törətmiş şəxs müəyyən edilmiş, 8815 nəfər isə cinayət məsuliyyətinə cəlb olunmuşdur. Cinayət məsuliyyətinə cəlb olunmuşların 58,5 faizi əmək qabiliyyətli yaşda olub heç bir yerdə oxumayan və işləməyənlər, 25,1 faizi əvvəllər də cinayət törətmiş şəxslərdir.

Cinayət törətmiş şəxslərdən 86-sı cinayəti sərxoş vəziyyətdə törətmişlər ki, onlardan 53-ü şəxsiyyət əleyhinə, 28-i ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, 3-ü dövlət hakimiyyəti əleyhinə, 2-si isə iqtisadi sahədə olan cinayətlərin payına düşür.

Cinayət törətmiş şəxslərin arasında qadınların xüsusi çəkisi 5,1 faiz, 14-17 yaşda olan uşaqların xüsusi çəkisi isə 2,2 faiz təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar–iyun ayları ərzində qadınlara və yetkinlik yaşına çatmayanlara qarşı törədilmiş cinayətlərin sayında müvafiq olaraq 3,4 və 5,3 faiz artım müşahidə olunmuşdur.

Cari ilin yanvar–iyun ayları ərzində qeydə alınmış cinayət hadisələrinin 787-si və ya 4,2 faizi məişət zorakılığı ilə bağlı olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricisindən 4,4 faiz çoxdur. Məişət zorakılığı ilə bağlı cinayətlərin 112-si əvvəllər də cinayət törətmiş şəxslər tərəfindən, 38-i isə sərxoş vəziyyətdə törədilmişdir. Məişət zorakılığı nəticəsində baş vermiş cinayətlərin 93,0 faizi qəsdən sağlamlığa az ağır və ya yüngül zərər vurma, 3,3 faizi qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 1,4 faizi qəsdən sağlamlığa ağır zərər vurma, 2,3 faizi isə digər cinayətlərə aiddir.

2024-cü ilin birinci yarısında qeydə alınmış cinayətlər nəticəsində zərərçəkən 11480 nəfərin 795-i və ya 6,9 faizi məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərdir. Həmin cinayətlər nəticəsində zərərçəkənlərin 83,8 faizini qadınlar, 1,0 faizini isə yetkinlik yaşına çatmayanlar təşkil etmişdir. Əvvəlki illə müqayisədə bu cinayətlər nəticəsində ölənlərin sayı 28,6 faiz azalaq 25 nəfər (onlardan 16-sı qadınlar) olmuşdur.

Cari ilin birinci yarısında qeydə alınmış cinayət hadisələrinin 5674-ü və ya 30,6 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olmuş, onların da 67,1 faizi satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 30,0 faizi eyni hərəkətləri satış məqsədilə etmə,

habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq satma, 2,0 faizi qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 0,8 faizi güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi, 0,1 faizi isə digər cinayətlərdir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 3856 nəfər cinayət törətmiş şəxs müyyən edilmişdir. Sözügedən cinayətlərin 1409-u narkomanlar tərəfindən törədilmişdir ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 19,4 faiz çoxdur.

Cədvəl 74

## 2024-cü ilin birinci yarısında Azərbaycan Respublikasında cinayətkarlığın vəziyyəti

(Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən)

| | 2023-cü ilin birinci yarısı | 2024-cü ilin birinci yarısı | 2024-cü ilin birinci yarısı 2023-cü ilin birinci yarısına nisbətən, faizlə |
|---|---|---|---|
| **Qeydə alınmış cinayətlər** | **19533** | **18518** | **94,8** |
| o cümlədən: | | | |
| **ictimai təhlükəlilik dərəcəsinə görə:** | | | |
| - xüsusilə ağır | 160 | 342 | 2,1 d. |
| - ağır | 3228 | 2357 | 73,0 |
| - az ağır | 11536 | 11230 | 97,3 |
| - böyük ictimai təhlükə törətməyən | 4609 | 4589 | 99,6 |
| qeydə alınmış cinayətlərin ümumi sayından: | | | |
| **Şəxsiyyət əleyhinə olan cinayətlər** | **2692** | **2820** | **104,8** |
| onlardan: | | | |
| - qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd | 109 | 106 | 97,2 |
| - qəsdən sağlamlığa ağır zərər vurma | 143 | 118 | 82,5 |
| - qəsdən sağlamlığa az ağır zərər vurma | 267 | 269 | 100,7 |
| - qəsdən sağlamlığa yüngül zərər vurma | 1761 | 1904 | 108,1 |
| - əzab vermə | 7 | 23 | 3,3 d. |
| - zorlama və ya zorlamaya cəhd | 13 | 9 | 69,2 |
| **İqtisadi sahədə cinayətlər** | **7982** | **7078** | **88,7** |
| onlardan: | | | |
| - oğurluq | 3715 | 2270 | 61,1 |
| onlardan: | | | |
| mənzillərdən | 837 | 479 | 57,2 |
| - dələduzluq | 2866 | 3543 | 123,6 |
| - mənimsəmə və ya israf etmə | 160 | 151 | 94,4 |

…ardı

| | 2023-cü ilin birinci yarısı | 2024-cü ilin birinci yarısı | 2024-cü ilin birinci yarısı 2023-cü ilin birinci yarısına nisbətən, faizlə |
|---|---|---|---|
| - soyğunçuluq | 109 | 64 | 58,7 |
| - quldurluq | 39 | 35 | 89,7 |
| **İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər** | **8120** | **7966** | **98,1** |
| onlardan: | | | |
| - xuliqanlıq | 266 | 305 | 114,7 |
| - yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma *) | 1356 | 1334 | 98,4 |
| onlardan zərərçəkənin ölümü ilə nəticələnmişdir | 324 | 310 | 95,7 |
| **Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər** | **730** | **630** | **86,3** |
| - rüşvət cinayətləri | 84 | 22 | 26,2 |
| **digər cinayətlər** | **9** | **24** | **2,7 d.** |

*) Bu göstərici yalnız cinayətkarlıqla bağlı yol-nəqliyyat hadisələrini əhatə edir.

## Demoqrafik vəziyyət

İlin əvvəlindən ölkə əhalisinin sayı 19243 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il iyul ayının 1-i vəziyyətinə 10200013 nəfərə çatmışdır. Əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Cari ilin iyul ayının əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23,0 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,7 faizi Qazax-Tovuz, 6,2 faizi Şəki-Zaqatala, 5,9 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,1 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,1 faizi Dağlıq Şirvan, 2,9 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında məskunlaşmışdır.

Cədvəl 75

### Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Yanvar - iyun ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə[1)] | | |
| | 2024 | 2023 | artım (+) azalma (-) | 2024 | 2023 | 2024-cü il 2023-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 18927 | 23753 | -4826 | 3,7 | 4,7 | 78,7 |
| doğulanlar | 48702 | 53918 | -5216 | 9,6 | 10,7 | 89,7 |
| ölənlər | 29775 | 30165 | -390 | 5,9 | 6,0 | 98,3 |
| Nikahlar | 22250 | 24146 | -1896 | 4,4 | 4,8 | 91,7 |
| Boşanmalar | 10430 | 10631 | -201 | 2,1 | 2,1 | 100,0 |

[1)] Əmsallar il üçün hesablanmışdır

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-iyun ayları ərzində 48702 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,7-dən 9,6-ya düşmüşdür. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,8 faiz

olmuşdur. Körpələrdən 1622-si əkiz, 72-si üçəm və 4-ü isə dördəm doğulmuşdur.

Doğum səviyyəsi əhalinin hər 1000 nəfərinə Dağlıq Şirvan (11,9), Lənkəran-Astara (11,6), Şərqi Zəngəzur (11,4), Qarabağ (11,3), Quba-Xaçmaz (10,9), Mil-Muğan (10,8), Mərkəzi Aran və Şirvan-Salyan (10,6), Qazax-Tovuz (10,5) iqtisadi rayonlarında ölkə göstəricisindən (9,6) yüksək olmuşdur.

Cari ilin birinci yarısında ölkədə 29775 ölüm halı qeydə alınmış və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,0-dan 5,9-a düşmüşdür.

Qrafik 32




Bu ilin yanvar-iyun aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 22250 nikah və 10430 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,4-ə düşmüş, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalmışdır.

Nikaha daxilolma səviyyəsi Şərqi Zəngəzur (5,4), Qarabağ (5,3), Qazax-Tovuz və Mil-Muğan (4,7), Bakı şəhəri, Dağlıq Şirvan və Lənkəran-Astara (4,6), Naxçıvan Muxtar Respublikası və Mərkəzi Aran (4,5) iqtisadi rayonlarında ölkə göstəricisindən (4,4) yüksək olmuşdur.

2024-cü ilin ilk altı ayı ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1487 nəfər gələn, Azərbaycandan isə 1171 nəfər gedən qeydə alınmış, miqrasiya saldosu ölkə üzrə müsbət 316 nəfər təşkil etmişdir.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **Tahir Budaqov**

Cədvəl 76

**2024-cü ilin yanvar-iyun aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər**

(ötən ilin müvafiq dövrünə nisbətən faizlə; dəyər ifadəsində göstəricilər sabit qiymətlərlə; milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | **Azərbaycan** | **Ermənistan** | **Belarus** | **Qazaxıstan** | **Qırğızıstan** | **Moldova** | **Rusiya** | **Tacikistan** | **Türkmənistan** | **Özbəkistan** | **Ukrayna** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 104,3 | 109,2[1)] | 105,0 | 103,8[1)] | 108,1 | 101,9[1)] | 105,4[1)] | 108,2[2)] | 106,3 | 106,4 | … |
| Sənaye məhsulunun ümumi həcmi | 100,9 | 118,2 | 107,1 | 102,8 | 101,0 | 101,3[3)] | 104,4 | 111,5 | … | 107,8 | … |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi | 104,5 | 102,7 | 106,5 | 104,5 | 109,9 | 97,8 | 117,7 | 100,3 | … | 117,9 | … |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 109,4 | 115,7 | 107,6 | 96,5 | 154,7 | 97,2[1)] | 114,5[1)] | 115,7 | … | 174,5[1)] | … |
| Ümumi istifadədə olan dəmir yolu ilə yük daşınması | 101,4 | 42,1 | … | 97,7 | 91,9 | 75,3[1)] | 96,9 | 100,7 | … | 100,5 | … |
| Pərakəndə əmtəə dövriyyəsi | 103,4 | 105,9 | 111,5 | 105,6 | 118,9 | … | 108,8 | 113,6 | … | 108,4 | … |
| o cümlədən satış müəssisələrinin pərakəndə əmtəə dövriyyəsi | 103,8 | 106,1 | 112,4 | 107,1 | 121,4 | … | 109,5 | 113,1 | … | 108,0 | … |
| İstehlak qiymətlərinin indeksi | 100,7 | 99,4 | 105,7 | 108,9 | 105,1 | 103,9 | 107,9 | 103,6 | … | 109,0 | … |
| Əhalinin gəlirləri (faktiki qiymətlərlə) | 105,3[4)] | … | 116,5[3)] | … | … | … | 115,9* | … | … | … | … |
| Əhalinin mal alınması və xidmətlərə xərcləri (faktiki qiymətlərlə) | 104,3[4)] | … | … | … | … | … | 115,8* | … | … | … | … |
| Sərəncamda qalan real gəlirlər | 104,4[4)] | … | 109,6[3)] | … | … | … | 108,1* | … | … | … | … |
| İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı | 109,4[3)] | 106,8 | 119,4 | … | 111,1[3)] | 114,7[1)] | 118,7[3)] | 112,7[3)] | … | 117,4 | … |
| İşçi qüvvəsinin müayinəsi əsasında işsizlərin ümumi sayı | … | … | 90,9 | … | … | … | 79,1[5)] | … | … | … | … |
| Məşğulluq xidməti orqanlarından rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı ( dövrün sonuna) | 86,3 | 94,5 | 80,9 | 110,8 | 77,8 | 36,7 | 72,4[5)] | 98,5[3)] | … | … | … |

…ardı

## 2024-cü ilin yanvar-iyun aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər

(ötən ilin müvafiq dövrünə nisbətən faizlə; dəyər ifadəsində göstəricilər sabit qiymətlərlə; milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | Azərbaycan | Ermənistan | Belarus | Qazaxıs-tan | Qırğızıs-tan | Moldova | Rusiya | Tacikis-tan | Türk-mənistan | Özbəkis-tan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İxrac (faktiki qiymətlərlə)-cəmi | 92,4[6] | 2,3 d. | 103,8[3] | 101,8[3] | 104,8[3] | 86,5[3] | 99,4[3] | 147,1 | … | 101,9[3] | … |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 89,8 | 80,5 | 100,9 | 83,6 | 81,4 | 83,1[7] | … | 86,0 | … | 97,7 | … |
| MDB üzvü olmayan dövlətlərə | 92,8 | 4,3 d. | 111,0 | 106,8 | 146,1 | 86,8[8] | … | 2,0 d. | … | 103,7 | … |
| İdxal (faktiki qiymətlərlə)- cəmi | 92,2[6] | 186,5 | 104,6[3] | 92,8[3] | 121,7[3] | 97,7[3] | 91,5[3] | 124,9 | … | 103,7[3] | … |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərindən | 86,5 | 4,5 d. | 114,9 | 92,2 | 110,7 | 49,8[7] | … | 125,0 | … | 109,3 | … |
| MDB üzvü olmayan dövlətlərdən | 95,2 | 84,4 | 93,0 | 93,1 | 126,9 | 101,7[8] | … | 124,7 | … | 100,9 | … |

[1] 2024-cü ilin yanvar-martı 2023-cü ilin yanvar-martına nisbətən.
[2] İqtisadiyyatın əsas sahələrinin qısamüddətli inkişaf göstəricisi.
[3] 2024-cü ilin yanvar-mayı 2023-cü ilin yanvar-mayına nisbətən
[4] Milli hesablar sisteminin metodologiyasına əsasən.
[5] 2024-cü ilin iyunu 2023-cü ilin iyununa nisbətən.
[6] 2024-cü ilin yanvar-mayı 2023-cü ilin yanvar-mayına nisbətən. Müqayisəli qiymətlərlə verilir.
[7] 2024-cü ildən etibarən Ukrayna üzrə məlumatlarsız
[8] 2024-cü ildən etibarən Ukrayna üzrə məlumatlar daxil edilməklə
* Qiymətləndirmə
Qeyd: Türkmənistan üzrə isə ölkənin dövlət orqanının saytından götürülmüşdür. MDB Statistika Komitəsi 2022-ci ilin dekabr ayından Ukrayna üzrə məlumatları əldə etmir.

# İQTİSADİ RAYONLAR

## *2024-cü ilin yanvar-iyun aylarında iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə iqtisadiyyatın əsas sahələrində məhsul buraxılışının fiziki həcm indeksi, əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə*

| | Sahələr üzrə cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | ticarət; nəqliyyat vasitələrinin təmiri |
| **Azərbaycan Respublikası – cəmi** | **105,3** | **102,2** | **100,3** | **118,4** | **115,4** | **112,2** | **103,3** |
| o cümlədən: | | | | | | | |
| **Bakı şəhəri-cəmi** | **103,1** | **97,8** | **116,6** | **122,1** | **115,6** | **111,4** | **104,5** |
| **Naxçıvan Muxtar Respublikası-cəmi** | **101,5** | **103,9** | **99,8** | **88,0** | **113,4** | **100,5** | **101,2** |
| **Abşeron-Xızı iqtisadi rayonu-cəmi** | **107,8** | **109,7** | **91,1** | **110,7** | **113,2** | **134,3** | **102,3** |
| o cümlədən: | | | | | | | |
| Sumqayıt şəhəri | 108,9 | 108,3 | 75,4 | 132,6 | 111,6 | 141,7 | 102,1 |
| Abşeron rayonu | 104,6 | 118,1 | 81,2 | 105,6 | 115,2 | 112,8 | 102,7 |
| Xızı rayonu | 127,3 | 85,9 | 133,7 | 136,3 | 104,8 | 143,6 | 96,6 |
| **Dağlıq Şirvan iqtisadi rayonu-cəmi** | **90,3** | **77,5** | **91,5** | **80,8** | **108,8** | **133,9** | **100,8** |
| o cümlədən: | | | | | | | |
| Ağsu rayonu | 83,4 | 68,4 | 95,6 | 69,9 | 107,1 | 147,2 | 99,8 |
| İsmayıllı rayonu | 96,1 | 95,0 | 90,0 | 95,9 | 107,0 | 128,0 | 103,1 |
| Qobustan rayonu | 89,0 | 100,6 | 74,5 | 187,0 | 112,1 | 152,8 | 100,1 |
| Şamaxı rayonu | 96,8 | 99,0 | 97,9 | 92,1 | 109,9 | 128,9 | 99,8 |
| **Gəncə-Daşkəsən iqtisadi rayonu-cəmi** | **108,6** | **109,7** | **101,8** | **134,4** | **108,3** | **107,2** | **100,4** |
| o cümlədən: | | | | | | | |
| Gəncə şəhəri | 105,4 | 110,1 | 123,6 | 89,3 | 104,0 | 106,4 | 100,9 |
| Naftalan şəhəri | 99,5 | 103,7 | 102,3 | 75,1 | 115,1 | 100,3 | 100,2 |
| Daşkəsən rayonu | 121,4 | 125,0 | 103,7 | 2,3 d. | 106,3 | 90,6 | 95,7 |
| Goranboy rayonu | 112,9 | 110,9 | 106,0 | 127,8 | 148,7 | 138,8 | 100,5 |
| Göygöl rayonu | 118,4 | 107,8 | 107,6 | 6,4 d. | 136,8 | 118,2 | 100,9 |
| Samux rayonu | 93,8 | 93,2 | 93,3 | 95,2 | 104,4 | 56,5 | 96,0 |
| **Qarabağ iqtisadi rayonu-cəmi** | **115,3** | **93,3** | **111,3** | **126,5** | **117,6** | **113,1** | **104,8** |
| o cümlədən: | | | | | | | |
| Xankəndi şəhəri | x | … | … | x | … | … | … |
| Ağcabədi rayonu | 98,2 | 92,1 | 100,3 | 62,6 | 103,4 | 61,3 | 100,2 |
| Ağdam rayonu | 174,3 | 91,6 | 109,2 | 2,3 d. | 103,8 | 60,7 | 125,2 |
| Ağdərə rayonu | x | x | x | x | … | … | … |
| Bərdə rayonu | 111,7 | 76,1 | 124,6 | 70,4 | 157,8 | 174,3 | 103,5 |
| Füzuli rayonu | 81,4 | 115,3 | 111,4 | 72,0 | 105,7 | 88,0 | 123,5 |
| Xocalı rayonu | 137,9 | 133,1 | 85,4 | 148,6 | 105,5 | - | - |
| Xocavənd rayonu | 99,6 | 84,8 | 2,0 d. | 76,8 | 123,1 | - | 2,9 d. |
| Şuşa rayonu | 156,6 | 2,8 d. | 121,9 | 155,0 | 73,4 | x | 2,1 d. |
| Tərtər rayonu | 99,6 | 91,2 | 86,6 | 132,8 | 94,7 | 81,3 | 98,1 |

…ardı...

| | Sahələr üzrə cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsər-rüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informa-siya və rabitə | ticarət; nəqliyyat vasitələri-nin təmiri |
| **Qazax-Tovuz iqtisadi rayonu-cəmi** | **97,6** | **77,5** | **103,8** | **59,6** | **110,7** | **98,8** | **102,2** |
| o cümlədən: | | | | | | | |
| Ağstafa rayonu | 105,2 | 92,1 | 111,8 | 105,8 | 99,2 | 104,5 | 101,5 |
| Gədəbəy rayonu | 68,2 | 28,5 | 100,7 | 154,5 | 110,7 | 169,0 | 99,8 |
| Qazax rayonu | 102,9 | 113,7 | 97,6 | 60,9 | 113,0 | 63,9 | 107,1 |
| Şəmkir rayonu | 100,2 | 99,1 | 103,8 | 37,3 | 120,7 | 92,1 | 102,2 |
| Tovuz rayonu | 104,7 | 98,4 | 105,8 | 2,9 d. | 106,5 | 107,8 | 101,3 |
| **Quba-Xaçmaz iqtisadi rayonu-cəmi** | **103,8** | **91,0** | **102,8** | **176,7** | **99,5** | **124,9** | **100,6** |
| o cümlədən: | | | | | | | |
| Xaçmaz rayonu | 95,1 | 91,0 | 99,6 | 62,5 | 90,5 | 126,6 | 100,3 |
| Quba rayonu | 105,5 | 90,1 | 118,3 | 107,0 | 118,3 | 122,1 | 100,8 |
| Qusar rayonu | 128,5 | 102,5 | 94,4 | 6,1 d. | 113,1 | 125,8 | 101,5 |
| Siyəzən rayonu | 122,3 | 115,7 | 119,4 | 2,8 d. | 140,6 | 130,2 | 99,2 |
| Şabran rayonu | 86,6 | 77,0 | 81,5 | 188,6 | 104,0 | 119,7 | 100,3 |
| **Lənkəran-Astara iqtisadi rayonu-cəmi** | **97,5** | **111,5** | **82,3** | **196,7** | **115,9** | **125,2** | **103,7** |
| o cümlədən: | | | | | | | |
| Astara rayonu | 114,4 | 90,8 | 96,9 | 3,8 d. | 71,3 | 85,4 | 108,6 |
| Cəlilabad rayonu | 74,7 | 98,9 | 62,4 | 170,5 | 137,3 | 2,1 d. | 100,7 |
| Lerik rayonu | 104,6 | 118,6 | 103,8 | 157,2 | 106,3 | 100,0 | 97,8 |
| Lənkəran rayonu | 110,4 | 99,2 | 104,1 | 170,3 | 106,9 | 132,2 | 109,2 |
| Masallı rayonu | 110,0 | 135,2 | 101,8 | 161,9 | 147,7 | 119,2 | 101,1 |
| Yardımlı rayonu | 103,0 | 106,4 | 101,0 | 2,1 d. | 105,1 | 82,6 | 91,0 |
| **Mərkəzi Aran iqtisadi rayonu-cəmi** | **101,4** | **96,9** | **101,2** | **120,7** | **105,9** | **93,3** | **99,9** |
| o cümlədən: | | | | | | | |
| Mingəçevir şəhəri | 90,6 | 89,8 | 92,6 | 39,8 | 79,2 | 109,0 | 102,9 |
| Ağdaş rayonu | 104,5 | 98,6 | 98,1 | 2,9 d. | 113,3 | 76,2 | 98,4 |
| Göyçay rayonu | 116,8 | 113,4 | 102,4 | 9,4 d. | 105,1 | 76,7 | 100,4 |
| Kürdəmir rayonu | 98,0 | 115,4 | 95,4 | 49,0 | 129,9 | 58,2 | 96,3 |
| Ucar rayonu | 112,8 | 97,4 | 116,5 | 119,2 | 108,5 | 115,9 | 100,9 |
| Yevlax rayonu | 93,4 | 97,1 | 98,1 | 54,5 | 113,0 | 143,2 | 100,0 |
| Zərdab rayonu | 94,5 | 92,3 | 89,5 | 129,4 | 168,8 | 152,0 | 99,5 |

...sonu

| | Sahələr üzrə cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | ticarət; nəqliyyat vasitələrinin təmiri |
| **Mil-Muğan iqtisadi rayonu-cəmi** | **95,0** | **86,3** | **99,0** | **69,8** | **107,6** | **125,4** | **101,2** |
| o cümlədən: | | | | | | | |
| Beyləqan rayonu | 85,6 | 75,7 | 94,6 | 13,8 | 106,2 | 74,6 | 105,5 |
| İmişli rayonu | 88,7 | 87,1 | 96,3 | 53,5 | 110,3 | 136,1 | 100,2 |
| Saatlı rayonu | 98,1 | 98,4 | 97,3 | 79,7 | 107,8 | 159,7 | 100,5 |
| Sabirabad rayonu | 105,0 | 97,3 | 102,4 | 179,3 | 105,4 | 159,8 | 100,2 |
| **Şəki-Zaqatala iqtisadi rayonu-cəmi** | **106,0** | **107,0** | **111,7** | **86,8** | **110,2** | **145,4** | **101,0** |
| o cümlədən: | | | | | | | |
| Balakən rayonu | 98,6 | 99,6 | 94,2 | 59,9 | 139,3 | 2,2 d. | 100,7 |
| Qax rayonu | 107,4 | 120,7 | 106,4 | 134,6 | 105,9 | 129,2 | 99,3 |
| Qəbələ rayonu | 105,2 | 117,2 | 100,0 | 91,9 | 95,8 | 145,1 | 101,8 |
| Oğuz rayonu | 99,8 | 111,8 | 104,3 | 78,0 | 109,0 | 143,7 | 99,8 |
| Şəki rayonu | 111,0 | 94,2 | 133,9 | 50,0 | 108,1 | 144,6 | 101,3 |
| Zaqatala rayonu | 107,7 | 107,0 | 109,9 | 123,0 | 107,7 | 129,0 | 100,9 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu-cəmi** | **117,6** | **127,9** | **103,6** | **118,1** | **186,2** | **75,5** | **104,1** |
| o cümlədən: | | | | | | | |
| Cəbrayıl rayonu | 118,9 | 93,8 | 103,7 | 119,7 | 5,3 d. | 64,9 | 149,6 |
| Kəlbəcər rayonu | 125,4 | 127,7 | 97,8 | 127,2 | 106,5 | - | 193,8 |
| Qubadlı rayonu | 2,1 d. | 101,2 | 89,7 | 2,6 d. | 102,7 | - | 100,1 |
| Laçın rayonu | 78,8 | 3,6 d. | 110,6 | 73,7 | 136,7 | - | 100,9 |
| Zəngilan rayonu | 129,4 | 115,7 | 125,0 | 130,0 | 106,1 | x | 100,1 |
| **Şirvan-Salyan iqtisadi rayonu-cəmi** | **99,7** | **102,2** | **101,4** | **69,2** | **109,3** | **106,0** | **100,2** |
| o cümlədən: | | | | | | | |
| Şirvan şəhəri | 93,8 | 96,2 | 98,1 | 43,5 | 110,0 | 63,5 | 101,1 |
| Biləsuvar rayonu | 103,2 | 100,8 | 106,1 | 94,2 | 158,3 | 137,9 | 100,3 |
| Hacıqabul rayonu | 105,4 | 125,9 | 102,0 | 75,5 | 110,7 | 149,6 | 98,2 |
| Neftçala rayonu | 98,2 | 137,1 | 100,9 | 28,6 | 112,5 | 85,6 | 100,2 |
| Salyan rayonu | 100,3 | 100,7 | 97,7 | 112,5 | 83,6 | 119,0 | 100,7 |

Qeyd: Yalnız ümumilikdə ölkə səviyyəsində mövcud olan məlumatlar iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə rəqəmlərdə nəzərə alınmamışdır.

## *2024-cü ilin yanvar-iyun aylarında iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bəzi demoqrafik göstəricilər*

| | 01.07.2024-cü il vəziyyətinə əhalinin sayı, min nəfər | N ə f ə r | | | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|---|
| | | təbii artım | doğulanlar | ölənlər | | |
| **Azərbaycan Respublikası – cəmi** | **10200,0** | **18927** | **48702** | **29775** | **22250** | **10430** |
| o cümlədən: | | | | | | |
| **Bakı şəhəri - cəmi** | **2347,8** | **2787** | **9960** | **7173** | **5418** | **3344** |
| o cümlədən: | | | | | | |
| Binəqədi rayonu | 308,2 | 359 | 1166 | 807 | 675 | 420 |
| Xətai rayonu | 276,6 | 413 | 1240 | 827 | 749 | 421 |
| Xəzər rayonu | 205,8 | 279 | 850 | 571 | 379 | 216 |
| Qaradağ rayonu | 117,3 | 311 | 718 | 407 | 362 | 196 |
| Nərimanov rayonu | 180,9 | 221 | 744 | 523 | 470 | 285 |
| Nəsimi rayonu | 219,4 | 134 | 705 | 571 | 417 | 278 |
| Nizami rayonu | 185,6 | 270 | 778 | 508 | 384 | 228 |
| Pirallahı rayonu | 18,8 | 10 | 79 | 69 | 31 | 20 |
| Sabunçu rayonu | 330,9 | 296 | 1271 | 975 | 607 | 340 |
| Səbail rayonu | 101,9 | 88 | 384 | 296 | 213 | 149 |
| Suraxanı rayonu | 208,5 | 296 | 1028 | 732 | 561 | 374 |
| Yasamal rayonu | 193,9 | 110 | 997 | 887 | 570 | 417 |
| **Naxçıvan Muxtar Respublikası - cəmi** | **469,6** | **705** | **1784** | **1079** | **1047** | **446** |
| o cümlədən: | | | | | | |
| Naxçıvan şəhəri | 97,6 | 118 | 354 | 236 | 225 | 124 |
| Babək rayonu | 78,0 | 147 | 324 | 177 | 164 | 77 |
| Culfa rayonu | 48,1 | 88 | 176 | 88 | 114 | 41 |
| Kəngərli rayonu | 33,6 | 97 | 165 | 68 | 86 | 25 |
| Ordubad rayonu | 50,7 | 43 | 165 | 122 | 72 | 28 |
| Sədərək rayonu | 23,1 | 32 | 81 | 49 | 56 | 16 |
| Şahbuz rayonu | 25,3 | -2 | 71 | 73 | 57 | 34 |
| Şərur rayonu | 113,2 | 182 | 448 | 266 | 273 | 101 |
| **Abşeron - Xızı iqtisadi rayonu - cəmi** | **877,5** | **904** | **2579** | **1675** | **1223** | **718** |
| o cümlədən: | | | | | | |
| Sumqayıt şəhəri | 427,4 | 356 | 1356 | 1000 | 665 | 440 |
| Abşeron rayonu | 433,4 | 533 | 1160 | 627 | 515 | 268 |
| Xızı rayonu | 16,7 | 15 | 63 | 48 | 43 | 10 |
| **Dağlıq Şirvan iqtisadi rayonu - cəmi** | **321,3** | **900** | **1891** | **991** | **732** | **275** |
| o cümlədən: | | | | | | |
| Ağsu rayonu | 80,7 | 167 | 430 | 263 | 190 | 104 |
| İsmayıllı rayonu | 87,3 | 170 | 455 | 285 | 197 | 55 |
| Qobustan rayonu | 47,2 | 223 | 364 | 141 | 117 | 31 |
| Şamaxı rayonu | 106,1 | 340 | 642 | 302 | 228 | 85 |
| **Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi** | **598,4** | **638** | **2606** | **1968** | **1278** | **742** |
| o cümlədən: | | | | | | |
| Gəncə şəhəri | 330,8 | 78 | 1118 | 1040 | 638 | 424 |
| Naftalan şəhəri | 8,6 | 11 | 40 | 29 | 21 | 13 |
| Daşkəsən rayonu | 33,3 | 74 | 204 | 130 | 77 | 48 |
| Goranboy rayonu | 102,1 | 250 | 597 | 347 | 261 | 120 |
| Göygöl rayonu | 64,9 | 110 | 343 | 233 | 149 | 76 |
| Samux rayonu | 58,7 | 115 | 304 | 189 | 132 | 61 |

...ardı...

| | 01.07.2024-cü il vəziyyətinə əhalinin sayı, min nəfər | N ə f ə r | | | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|---|
| | | təbii artım | doğulanlar | ölənlər | | |
| **Qarabağ iqtisadi rayonu - cəmi** | **745,1** | **1814** | **4179** | **2365** | **1964** | **744** |
| o cümlədən: | | | | | | |
| Xankəndi şəhəri | 4,4 | 4 | 13 | 9 | 12 | 8 |
| Ağcabədi rayonu | 136,3 | 300 | 723 | 423 | 355 | 99 |
| Ağdam rayonu | 175,1 | 494 | 1098 | 604 | 508 | 206 |
| Ağdərə rayonu | 12,1 | 11 | 22 | 11 | 8 | 6 |
| Bərdə rayonu | 157,3 | 399 | 896 | 497 | 393 | 150 |
| Füzuli rayonu | 131,1 | 328 | 752 | 424 | 335 | 154 |
| Xocalı rayonu | 15,5 | 57 | 90 | 33 | 57 | 19 |
| Xocavənd rayonu | 12,4 | 41 | 73 | 32 | 33 | 15 |
| Şuşa rayonu | 25,1 | 43 | 125 | 82 | 76 | 27 |
| Tərtər rayonu | 75,8 | 137 | 387 | 250 | 187 | 60 |
| **Qazax-Tovuz iqtisadi rayonu - cəmi** | **679,0** | **1305** | **3534** | **2229** | **1569** | **589** |
| o cümlədən: | | | | | | |
| Ağstafa rayonu | 86,5 | 175 | 478 | 303 | 191 | 74 |
| Gədəbəy rayonu | 101,1 | 143 | 463 | 320 | 219 | 64 |
| Qazax rayonu | 96,3 | 138 | 473 | 335 | 258 | 103 |
| Şəmkir rayonu | 217,8 | 445 | 1111 | 666 | 435 | 184 |
| Tovuz rayonu | 177,3 | 404 | 1009 | 605 | 466 | 164 |
| **Quba-Xaçmaz iqtisadi rayonu - cəmi** | **548,5** | **1291** | **2964** | **1673** | **1007** | **435** |
| o cümlədən: | | | | | | |
| Xaçmaz rayonu | 174,7 | 351 | 898 | 547 | 277 | 146 |
| Quba rayonu | 170,7 | 448 | 972 | 524 | 350 | 112 |
| Qusar rayonu | 102,6 | 216 | 503 | 287 | 150 | 83 |
| Siyəzən rayonu | 42,0 | 105 | 224 | 119 | 99 | 32 |
| Şabran rayonu | 58,5 | 171 | 367 | 196 | 131 | 62 |
| **Lənkəran-Astara iqtisadi rayonu -cəmi** | **940,4** | **2866** | **5398** | **2532** | **2162** | **657** |
| o cümlədən: | | | | | | |
| Astara rayonu | 112,3 | 438 | 747 | 309 | 310 | 74 |
| Cəlilabad rayonu | 218,1 | 977 | 1493 | 516 | 448 | 113 |
| Lerik rayonu | 86,4 | 350 | 555 | 205 | 211 | 51 |
| Lənkəran rayonu | 227,7 | 265 | 985 | 720 | 520 | 183 |
| Masallı rayonu | 227,1 | 423 | 1073 | 650 | 475 | 192 |
| Yardımlı rayonu | 68,8 | 413 | 545 | 132 | 198 | 44 |
| **Mərkəzi Aran iqtisadi rayonu -cəmi** | **722,1** | **1512** | **3797** | **2285** | **1626** | **747** |
| o cümlədən: | | | | | | |
| Mingəçevir şəhəri | 103,0 | 150 | 470 | 320 | 184 | 166 |
| Ağdaş rayonu | 107,2 | 164 | 501 | 337 | 236 | 134 |
| Göyçay rayonu | 118,8 | 208 | 607 | 399 | 293 | 105 |
| Kürdəmir rayonu | 118,8 | 326 | 662 | 336 | 250 | 91 |
| Ucar rayonu | 85,2 | 149 | 450 | 301 | 228 | 72 |
| Yevlax rayonu | 129,6 | 412 | 834 | 422 | 282 | 146 |
| Zərdab rayonu | 59,5 | 103 | 273 | 170 | 153 | 33 |

...sonu

| | 01.07.2024-cü il vəziyyətinə əhalinin sayı, min nəfər | N ə f ə r | | | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|---|
| | | təbii artım | doğulanlar | ölənlər | | |
| **Mil-Muğan iqtisadi rayonu -cəmi** | **525,6** | **1336** | **2809** | **1473** | **1232** | **400** |
| o cümlədən: | | | | | | |
| Beyləqan rayonu | 101,8 | 227 | 526 | 299 | 258 | 93 |
| İmişli rayonu | 132,0 | 294 | 663 | 369 | 337 | 91 |
| Saatlı rayonu | 110,8 | 246 | 537 | 291 | 245 | 97 |
| Sabirabad rayonu | 181,0 | 569 | 1083 | 514 | 392 | 119 |
| **Şəki-Zaqatala iqtisadi rayonu - cəmi** | **627,5** | **917** | **2888** | **1971** | **1109** | **483** |
| o cümlədən: | | | | | | |
| Balakən rayonu | 100,8 | 112 | 397 | 285 | 157 | 73 |
| Qax rayonu | 58,2 | 53 | 267 | 214 | 91 | 38 |
| Qəbələ rayonu | 109,2 | 316 | 600 | 284 | 226 | 79 |
| Oğuz rayonu | 44,6 | 92 | 235 | 143 | 75 | 39 |
| Şəki rayonu | 184,4 | 213 | 833 | 620 | 353 | 150 |
| Zaqatala rayonu | 130,3 | 131 | 556 | 425 | 207 | 104 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi** | **301,3** | **794** | **1711** | **917** | **807** | **370** |
| o cümlədən: | | | | | | |
| Cəbrayıl rayonu | 73,3 | 163 | 377 | 214 | 183 | 72 |
| Kəlbəcər rayonu | 72,1 | 247 | 468 | 221 | 240 | 92 |
| Qubadlı rayonu | 37,2 | 87 | 209 | 122 | 94 | 46 |
| Laçın rayonu | 75,9 | 228 | 453 | 225 | 181 | 94 |
| Zəngilan rayonu | 42,8 | 69 | 204 | 135 | 109 | 66 |
| **Şirvan-Salyan iqtisadi rayonu - cəmi** | **495,9** | **1158** | **2602** | **1444** | **1076** | **480** |
| o cümlədən: | | | | | | |
| Şirvan şəhəri | 85,6 | 104 | 399 | 295 | 173 | 105 |
| Biləsuvar rayonu | 106,9 | 363 | 602 | 239 | 244 | 76 |
| Hacıqabul rayonu | 76,1 | 226 | 435 | 209 | 154 | 74 |
| Neftçala rayonu | 87,4 | 150 | 416 | 266 | 178 | 112 |
| Salyan rayonu | 139,9 | 315 | 750 | 435 | 327 | 113 |

*2024-cü ilin yanvar-iyun aylarında iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bəzi demoqrafik göstəricilər (əhalinin hər 1000 nəfərinə)*

| | Təbii artım | Doğulanlar | Ölənlər | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikası – cəmi** | **3,7** | **9,6** | **5,9** | **4,4** | **2,1** |
| **Bakı şəhəri - cəmi** | **2,4** | **8,5** | **6,1** | **4,6** | **2,9** |
| o cümlədən: | | | | | |
| Binəqədi rayonu | 2,3 | 7,6 | 5,3 | 4,4 | 2,7 |
| Xətai rayonu | 3,0 | 9,0 | 6,0 | 5,5 | 3,1 |
| Xəzər rayonu | 2,7 | 8,3 | 5,6 | 3,7 | 2,1 |
| Qaradağ rayonu | 5,3 | 12,3 | 7,0 | 6,2 | 3,4 |
| Nərimanov rayonu | 2,5 | 8,3 | 5,8 | 5,2 | 3,2 |
| Nəsimi rayonu | 1,3 | 6,5 | 5,2 | 3,8 | 2,5 |
| Nizami rayonu | 2,9 | 8,4 | 5,5 | 4,2 | 2,5 |
| Pirallahı rayonu | 1,0 | 8,4 | 7,4 | 3,3 | 2,1 |
| Sabunçu rayonu | 1,8 | 7,7 | 5,9 | 3,7 | 2,1 |
| Səbail rayonu | 1,8 | 7,6 | 5,8 | 4,2 | 2,9 |
| Suraxanı rayonu | 2,8 | 9,9 | 7,1 | 5,4 | 3,6 |
| Yasamal rayonu | 1,1 | 10,3 | 9,2 | 5,9 | 4,3 |
| **Naxçıvan Muxtar Respublikası - cəmi** | **3,0** | **7,6** | **4,6** | **4,5** | **1,9** |
| o cümlədən: | | | | | |
| Naxçıvan şəhəri | 2,4 | 7,3 | 4,9 | 4,6 | 2,6 |
| Babək rayonu | 3,8 | 8,4 | 4,6 | 4,2 | 2,0 |
| Culfa rayonu | 3,7 | 7,4 | 3,7 | 4,8 | 1,7 |
| Kəngərli rayonu | 5,8 | 9,9 | 4,1 | 5,2 | 1,5 |
| Ordubad rayonu | 1,7 | 6,5 | 4,8 | 2,9 | 1,1 |
| Sədərək rayonu | 2,8 | 7,1 | 4,3 | 4,9 | 1,4 |
| Şahbuz rayonu | -0,2 | 5,6 | 5,8 | 4,5 | 2,7 |
| Şərur rayonu | 3,3 | 8,0 | 4,7 | 4,9 | 1,8 |
| **Abşeron- Xızı iqtisadi rayonu - cəmi** | **2,1** | **5,9** | **3,8** | **2,8** | **1,6** |
| o cümlədən: | | | | | |
| Sumqayıt şəhəri | 1,7 | 6,4 | 4,7 | 3,1 | 2,1 |
| Abşeron rayonu | 2,5 | 5,4 | 2,9 | 2,4 | 1,2 |
| Xızı rayonu | 1,8 | 7,6 | 5,8 | 5,2 | 1,2 |
| **Dağlıq Şirvan iqtisadi rayonu – cəmi** | **5,7** | **11,9** | **6,2** | **4,6** | **1,7** |
| o cümlədən: | | | | | |
| Ağsu rayonu | 4,1 | 10,7 | 6,6 | 4,7 | 2,6 |
| İsmayıllı rayonu | 3,9 | 10,5 | 6,6 | 4,5 | 1,3 |
| Qobustan rayonu | 9,5 | 15,5 | 6,0 | 5,0 | 1,3 |
| Şamaxı rayonu | 6,5 | 12,2 | 5,7 | 4,3 | 1,6 |
| **Gəncə-Daşkəsən iqtisadi rayonu – cəmi** | **2,2** | **8,8** | **6,6** | **4,3** | **2,5** |
| o cümlədən: | | | | | |
| Gəncə şəhəri | 0,5 | 6,8 | 6,3 | 3,9 | 2,6 |
| Naftalan şəhəri | 2,5 | 9,3 | 6,8 | 4,9 | 3,0 |
| Daşkəsən rayonu | 4,5 | 12,3 | 7,8 | 4,6 | 2,9 |
| Goranboy rayonu | 5,0 | 11,8 | 6,8 | 5,1 | 2,4 |
| Göygöl rayonu | 3,4 | 10,6 | 7,2 | 4,6 | 2,4 |
| Samux rayonu | 3,9 | 10,4 | 6,5 | 4,5 | 2,1 |

...ardı …

| | Təbii artım | Doğulanlar | Ölənlər | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu - cəmi** | **4,9** | **11,3** | **6,4** | **5,3** | **2,0** |
| o cümlədən: | | | | | |
| Xankəndi şəhəri | 1,9 | 6,0 | 4,1 | 5,5 | 3,7 |
| Ağcabədi rayonu | 4,5 | 10,7 | 6,2 | 5,2 | 1,5 |
| Ağdam rayonu | 5,7 | 12,6 | 6,9 | 5,8 | 2,4 |
| Ağdərə rayonu | 1,9 | 3,7 | 1,8 | 1,3 | 1,0 |
| Bərdə rayonu | 5,1 | 11,5 | 6,4 | 5,0 | 1,9 |
| Füzuli rayonu | 5,0 | 11,5 | 6,5 | 5,1 | 2,4 |
| Xocalı rayonu | 7,4 | 11,7 | 4,3 | 7,4 | 2,5 |
| Xocavənd rayonu | 6,7 | 11,9 | 5,2 | 5,4 | 2,4 |
| Şuşa rayonu | 3,4 | 10,0 | 6,6 | 6,1 | 2,2 |
| Tərtər rayonu | 3,7 | 10,3 | 6,6 | 5,0 | 1,6 |
| **Qazax-Tovuz iqtisadi rayonu- cəmi** | **3,9** | **10,5** | **6,6** | **4,7** | **1,7** |
| o cümlədən: | | | | | |
| Ağstafa rayonu | 4,0 | 11,1 | 7,1 | 4,4 | 1,7 |
| Gədəbəy rayonu | 2,8 | 9,2 | 6,4 | 4,4 | 1,3 |
| Qazax rayonu | 2,9 | 9,9 | 7,0 | 5,4 | 2,2 |
| Şəmkir rayonu | 4,1 | 10,3 | 6,2 | 4,0 | 1,7 |
| Tovuz rayonu | 4,6 | 11,5 | 6,9 | 5,3 | 1,9 |
| **Quba-Xaçmaz iqtisadi rayonu- cəmi** | **4,8** | **10,9** | **6,1** | **3,7** | **1,6** |
| o cümlədən: | | | | | |
| Xaçmaz rayonu | 4,0 | 10,3 | 6,3 | 3,2 | 1,7 |
| Quba rayonu | 5,3 | 11,5 | 6,2 | 4,1 | 1,3 |
| Qusar rayonu | 4,3 | 9,9 | 5,6 | 2,9 | 1,6 |
| Siyəzən rayonu | 5,1 | 10,8 | 5,7 | 4,8 | 1,5 |
| Şabran rayonu | 5,9 | 12,6 | 6,7 | 4,5 | 2,1 |
| **Lənkəran-Astara iqtisadi rayonu -cəmi** | **6,2** | **11,6** | **5,4** | **4,6** | **1,4** |
| o cümlədən: | | | | | |
| Astara rayonu | 7,9 | 13,4 | 5,5 | 5,6 | 1,3 |
| Cəlilabad rayonu | 9,0 | 13,8 | 4,8 | 4,1 | 1,0 |
| Lerik rayonu | 8,1 | 12,9 | 4,8 | 4,9 | 1,2 |
| Lənkəran rayonu | 2,3 | 8,7 | 6,4 | 4,6 | 1,6 |
| Masallı rayonu | 3,7 | 9,5 | 5,8 | 4,2 | 1,7 |
| Yardımlı rayonu | 12,1 | 16,0 | 3,9 | 5,8 | 1,3 |
| **Mərkəzi Aran iqtisadi rayonu -cəmi** | **4,2** | **10,6** | **6,4** | **4,5** | **2,1** |
| o cümlədən: | | | | | |
| Mingəçevir şəhəri | 2,9 | 9,2 | 6,3 | 3,6 | 3,2 |
| Ağdaş rayonu | 3,1 | 9,4 | 6,3 | 4,4 | 2,5 |
| Göyçay rayonu | 3,5 | 10,3 | 6,8 | 5,0 | 1,8 |
| Kürdəmir rayonu | 5,5 | 11,2 | 5,7 | 4,2 | 1,5 |
| Ucar rayonu | 3,5 | 10,6 | 7,1 | 5,4 | 1,7 |
| Yevlax rayonu | 6,4 | 13,0 | 6,6 | 4,4 | 2,3 |
| Zərdab rayonu | 3,5 | 9,2 | 5,7 | 5,2 | 1,1 |
| **Mil-Muğan iqtisadi rayonu -cəmi** | **5,2** | **10,8** | **5,6** | **4,7** | **1,5** |
| o cümlədən: | | | | | |
| Beyləqan rayonu | 4,5 | 10,4 | 5,9 | 5,1 | 1,8 |
| İmişli rayonu | 4,5 | 10,1 | 5,6 | 5,1 | 1,4 |
| Saatlı rayonu | 4,5 | 9,8 | 5,3 | 4,5 | 1,8 |
| Sabirabad rayonu | 6,3 | 12,0 | 5,7 | 4,4 | 1,3 |

…sonu

| | Təbii artım | Doğulanlar | Ölənlər | Nikahlar | Boşanmalar |
|---|---|---|---|---|---|
| **Şəki-Zaqatala iqtisadi rayonu - cəmi** | **3,0** | **9,3** | **6,3** | **3,6** | **1,5** |
| o cümlədən: | | | | | |
| Balakən rayonu | 2,2 | 7,9 | 5,7 | 3,1 | 1,5 |
| Qax rayonu | 1,8 | 9,2 | 7,4 | 3,1 | 1,3 |
| Qəbələ rayonu | 5,9 | 11,1 | 5,2 | 4,2 | 1,5 |
| Oğuz rayonu | 4,1 | 10,6 | 6,5 | 3,4 | 1,8 |
| Şəki rayonu | 2,3 | 9,1 | 6,8 | 3,9 | 1,6 |
| Zaqatala rayonu | 2,0 | 8,6 | 6,6 | 3,2 | 1,6 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi** | **5,3** | **11,4** | **6,1** | **5,4** | **2,5** |
| o cümlədən: | | | | | |
| Cəbrayıl rayonu | 4,5 | 10,4 | 5,9 | 5,0 | 2,0 |
| Kəlbəcər rayonu | 6,9 | 13,1 | 6,2 | 6,7 | 2,6 |
| Qubadlı rayonu | 4,7 | 11,3 | 6,6 | 5,1 | 2,5 |
| Laçın rayonu | 6,0 | 12,0 | 6,0 | 4,8 | 2,5 |
| Zəngilan rayonu | 3,3 | 9,6 | 6,3 | 5,1 | 3,1 |
| **Şirvan-Salyan iqtisadi rayonu - cəmi** | **4,7** | **10,6** | **5,9** | **4,4** | **1,9** |
| o cümlədən: | | | | | |
